QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 172 (5644) **13 sentyabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


## Azərbaycanda təhsilin inkişafı üçün mühüm işlər həyata keçirilir

*Prezident İlham Əliyev 227 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub*



Səh 3


Vətənin başlanğıc nöqtəsi



6

“Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır”



2

“Birdəfəlik ödəmələr şəhid hərbi qulluqçuların vərəsələrinə veriləcək”



7

Bəhruz Quliyev: “Paşinyanın yanlış siyasəti regional təhdiddir”



7

Qəhrəmanlıq və sərkərdəlik qabiliyyətinə görə, “Trablis qəhrəmanı” kimi şöhrətlənən Nuru paşa



11

Tramp Paşinyanla görüşdən niyə imtina etdi?



12

12

Ermənistandakı siyasi vəziyyət AŞPA-da müzakirə olunacaq



8

Nikolun fiaskosu - hər şey onun istədiyi kimi getmir



16

İspaniya yığması Xorvatiya millisini darmadağın edib



# “Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır”

*Prezident İlham Əliyev ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Tomas Qremingerin səfəri zamanı müzakirə ediləsi məsələlərin gündəliyinin geniş olduğunu deyən dövlətimizin başçısı bildirdi ki, əsas məsələlərdən biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Bu baxımdan, Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistanın yeni baş nazirinin fəaliyyətə başladığı ilk günlərdən münaqişənin həlli ilə əlaqədar verdiyi ziddiyyətli bəyanatlar ən azı təəccüb doğurur. Xüsusilə “Azərbaycan qondarma “Dağlıq Qarabağ Respublikası” ilə danışıqlar aparmalıdır” tezisi qəbuledilməzdir. Bu, onu göstərir ki, Ermənistan rəhbərliyi danışıqları pozmaq istəyir. Azərbaycanın işğal edilmiş rayonlarının guya qondarma “Dağlıq Qarabağ Respublikası”nın tərkib hissəsi olması kimi bəyanatları da Azərbaycan qətiyyətlə rədd edir və Azərbaycan ATƏT-i bu təhlükəli bəyanatlara reaksiya verməyə çağırır. Ümumiyyətlə, Azərbaycan tərəfində belə bir qənaət yaranıb ki, Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə bunun bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən Paşinyanın üzərinə düşəcək.

Prezident İlham Əliyev Ermənistanda demokratiya adı altında insan haqlarının kütləvi şəkildə pozulması hallarına, Ermənistanın baş naziri tərəfindən siyasi rəqiblərinin həbsi haqqında verdiyi göstərişlərə, Ermənistanda yeni diktatura rejiminin yaranmasına ATƏT-in biganə qalmaması ilə bağlı müraciət edib. Söhbət zamanı regional təhlükəsizlik, demokratik inkişaf, nəqliyyat, iqtisadi əməkdaşlıq ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Oğuz rayonunun Bucaq-Muxas-Baş Daşağıl avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, 4000 nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Bucaq-Muxas-Baş Daşağıl avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 9,4 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

* * *

Prezident İlham Əliyev 2018/2019-cu tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

# Azərbaycan və Çexiyanın münasibətləri genişlənir

*Prezident İlham Əliyev Çexiyanın sənaye və ticarət nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Çex Respublikasının sənaye və ticarət naziri xanım Marta Novakovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Çex Respublikasının Prezidenti Miloş Zemanın Azərbaycana səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfərdən ötən dövr ərzində ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini dedi. Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafının razılıq doğurduğunu qeyd edən dövlətimizin başçısı ticarət dövriyyəsinin artdığını vurğuladı, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün əlavə imkanların müəyyənləşdirilməsinin zəruriliyini bildirdi. İqtisadi tərəfdaşlığın geniş gündəliyə malik olduğunu, bir sıra Çex şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, investisiya sahələrində əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd etdi.

Başçılıq etdiyi nümayəndə heyətinə çexiyalı iş adamlarının daxil olduğunu deyən nazir xanım Marta Novakova bu gün Bakıda keçiriləcək Azərbaycan-Çexiya biznes forumunun əhəmiyyətini qeyd etdi və bu tədbirin iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Söhbət zamanı sənaye, infrastruktur, avtomobil sənayesi, kənd təsərrüfatı, turizm sahələrində əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi.

# Azərbaycanda təhsilin inkişafı üçün mühüm işlər həyata keçirilir

## *Prezident İlham Əliyev 227 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsindəki 227 saylı tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Sevinc Hüseynova görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.***

Bildirildi ki, 227 nömrəli tam orta məktəbin binası 1937-ci ildə tikilib. Binanın əsas korpusu İkinci Dünya müharibəsi illərində hospital kimi fəaliyyət göstərib. Sonra bina məktəb kimi fəaliyyətini davam etdirib. 2005-ci və 2007-ci illərdə məktəb üçün əlavə iki korpus tikilib və istifadəyə verilib. Yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib. Hazırda məktəbdə ikinövbəli sistemdə 1176 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 82 müəllim məşğul olur. Məktəbdə 38 sinif otağı, informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil müəssisəsinin həyətində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.

Qeyd olunub ki, məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçilirlər. Son illərin statistikasına görə, məktəbi bitirən məzunların 60-70 faizi tələbə adını qazanıb.

Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi də məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxt və ətraf qəsəbələrlə yanaşı, respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur, lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.

# Azərbaycan ilə NATO arasında əlaqələr uğurla inkişaf edir

## *Prezident İlham Əliyev NATO Parlament Assambleyası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək NATO Parlament Assambleyasının iqtisadiyyat və təhlükəsizlik komitəsinin Bakıda keçirilən iclasının bu əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev özünün ötən il NATO-nun mənzil-qərargahına səfərini məmnunluqla xatırlayaraq NATO baş katibi ilə və eləcə də Şimali Atlantika Şurasında keçirilən görüşlərdə Azərbaycanın NATO-Azərbaycan əməkdaşlığı və regiondakı rolu barədə çox müsbət fikirlərin söylənildiyini qeyd etdi. Azərbaycan-NATO əməkdaşlığının bir çox illərdir həyata keçirildiyini və müxtəlif sahələri əhatə etdiyini deyən Prezident İlham Əliyev ölkəmizin Qətiyyətli Dəstək Missiyasında iştirakının və orada hərbçilərimizin sayının artırılmasının NATO tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. Dövlətimizin başçısı NATO Parlament Assambleyasının sədri Paolo Allinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-NATO və eləcə də Azərbaycan Milli Məclisi ilə NATO Parlament Assambleyası arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

NATO Parlament Assambleyasının sədri Paolo Alli Prezident İlham Əliyev ilə görüşündən məmnunluq hissi keçirdiyini qeyd edərək Azərbaycan Prezidenti ilə regional təhlükəsizlik və əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmasında maraqlı olduqlarını bildirdi. Paolo Alli, eyni zamanda, Azərbaycan-NATO əlaqələrinin inkişafında Azərbaycan Milli Məclisi ilə NATO Parlament Assambleyasının rolunu vurğuladı.



# Təhsil müəssisələrinin əsaslı təmiri və təchizatı diqqət mərkəzindədir

*Prezident İlham Əliyev 8 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub*







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nəsimi rayonunda general-leytenant Kərim Kərimov adına 8 nömrəli tam orta məktəbdə yenidənqurmadan və əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Aytən Baxşəliyeva təhsil ocağında görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.***

Diqqətə çatdırıldı ki, bu məktəbin binası 1900-cü ildə inşa edilib. Burada əvvəllər hərbi xəstəxana, sonralar isə Bakı Hərbi Məktəbi yerləşib. 1945-ci ildən binada 8 saylı tam orta məktəb fəaliyyət göstərir. Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Kərim Kərimovun adını daşıyan məktəbdə təmir işlərinə Prezident İlham Əliyevin təsdiq etdiyi layihəyə uyğun olaraq bu ilin mayından başlanılıb, yenidənqurma və təchizat işləri qısa vaxt ərzində və yüksək səviyyədə həyata keçirilib.

Dövlətimizin başçısı məktəbdə yaradılan şəraitlə tanış oldu. Azərbaycan Prezidentinin Sərəncamı ilə 8 nömrəli məktəb 2010-2011-ci tədris ilində keçirilən "Ən yaxşı ümumtəhsil müəssisəsi" müsabiqəsinin qalibi olub.

Bildirilib ki, məktəbin üçmərtəbəli binası əsas və yardımçı korpuslardan ibarətdir. Burada 780 şagird təhsil alır, 2016-2017-ci tədris ilindən məktəbəhazırlıq qrupları fəaliyyət göstərir. Məktəbdə tədris Azərbaycan və rus bölmələri üzrə aparılır. Yenidənqurma işləri zamanı bütün sinif otaqları, emalatxana, hərbi otaq, laboratoriyalar, yeməkxana, idman və akt zalları, eləcə də digər xidmət otaqları əsaslı şəkildə təmir edilib, əlavə 5 sinif otağı artırılıb. Təhsil müəssisəsində 70 nəfəri pedaqoji işçi olmaqla, ümumilikdə, 83 nəfər əməkdaş çalışır. Burada pedaqoji kollektivin fəaliyyət göstərməsi və şagirdlərin müasir tələblərə cavab verəcək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib.

Zəngin təbii sərvətləri olan Azərbaycanda bu sərvətlərdən səmərəli istifadə etməklə insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir. Son illərdə müasir məktəb binaları tikilir, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses ölkəmizin bütün bölgələrini əhatə edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verir. Yüksək şəraiti və müasir tədris-təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də 8 saylı tam orta məktəbdir.



# Bakıdakı 2 nömrəli texniki-humanitar liseyin binası əsaslı təmir edilib

## *Prezident İlham Əliyev liseydə yaradılan şəraitlə tanış olub*











***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Səbail rayonunda Həbib bəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar liseydə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.***

AZƏRTAC xəbər verir ki, təhsil ocağının direktoru Bəkir Mustafayev burada aparılan işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Qeyd olundu ki, liseyin yerləşdiyi binanın yaşı 100 ildən çoxdur. Təhsil ocağında əsaslı təmir işləri bu ilin mayında Prezident İlham Əliyevin tapşırığına əsasən aparılıb. Lisey binasında təmir işləri qısa müddətə və yüksək keyfiyyətlə görülüb. Ümumi sahəsi 2500 kvadratmetr olan üçmərtəbəli binada 31 sinif otağı və müxtəlif fənn kabinetləri var. Burada şagirdlər zəngin ədəbiyyat fondu olan kitabxanadan istifadə edəcəklər. Liseyin yeməkxanası tam yenilənib. Təhsil müəssisəsinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb. Lisey müasir avadanlıq və dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri biliklərini laboratoriyalarda tətbiq etmələri üçün yeni avadanlıqlar quraşdırılıb. Məktəbin kimya, fizika, biologiya, informatika, ədəbiyyat, riyaziyyat, tarix kabinetləri də müasir avadanlıqla təchiz edilib. Liseydə yeni ekoloji kabinet də yaradılıb. Yeniyetmələrin hərbi biliklərinin artırılması məqsədilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları tərəfindən xüsusi olaraq liseydə çağırışaqədərki hərbi hazırlıq kabineti yaradılıb. Təhsil ocağında idman və akt zalları müasir səviyyədə təmir olunub. Bir sözlə, burada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait yaradılıb. Hazırda liseydə 506 şagird Azərbaycan və rus bölmələrində təhsil alır.

Onu da deyək ki, Azərbaycanda ilk dünyəvi məktəb olan bu liseyin təməli 1887-ci ildə "Rus-müsəlman" məktəbi kimi görkəmli maarifçi Həbib bəy Mahmudbəyov tərəfindən qoyulub. Bu təhsil ocağı nəinki Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda böyük şöhrət qazanıb. İlk vaxtlarda bu məktəbdə o dövrün tanınmış ziyalıları olan Süleyman Sani Axundov, Abdulla Şaiq və digər görkəmli maarifçilər dərs deyiblər.

Prezident İlham Əliyevin ölkəmizdə təhsilə olan diqqət və qayğısının bariz nəticəsidir ki, son illər ərzində respublikamızın hər yerində olduğu kimi, paytaxtın mərkəzi rayonu olan Səbail rayonunda da təhsil müəssisələrinin əsaslı təmiri və təchizatı diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin tapşırıq və sərəncamlarına əsasən rayonda bir yeni məktəb və uşaq bağçası inşa olunub, iki orta məktəb və bir musiqi məktəbinin binası sökülərək yenidən tikilib, 5 orta məktəb üçün əlavə tədris korpusları inşa edilib. Ümumilikdə, digər orta və məktəbəqədər təhsil müəssisələrində də əsaslı təmir işləri aparılıb.

Lisey binasında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə yeni tədris ilində uğurlar arzuladı.

# Vətənin başlanğıc nöqtəsi

***Vətən sərhəddən başlayır. Sərhədi ciddi və etibarlı qorunan Vətən həmişə əzəmətli görünüb. Eyni zamanda, sərhədi möhkəm qorunan dövlətin ticari və iqtisadi inkişafı qaçılmazdır, qlobal təhlükələrdən, xüsusən də, terrorizmdən müdafiəsi etibarlıdır. Məhz bu gün sərhədlərimizin qorunması istiqamətində Azərbaycan dövlətinin əhəmiyyətli layihələri mövcuddur. Eyni zamanda, qürurla qeyd etmək olar ki, ölkəmizin Silahlı Qüvvələrinin sırasında Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin peşəkarlıq səviyyəsi daim yüksəlməkdədir.***



“Sərhəd hər bir dövlətin rəmzidir. Bayraq, gerb və himn kimi” - deyə vurğulayan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev müstəqil dövlətin əsas dayağının onun silahlı qüvvələrində olduğunu daim qeyd edib. Əlbəttə ki, Sərhəd Qoşunlarının əsgərindən tutmuş zabit heyətinədək hər bir Azərbaycan övladı burada xidmət keçməkdən yalnız fərəh və qürur hissi duyur. Söz yox ki, Sərhəd Qoşunlarının elit hərbi gücə çevrilməsi asan başa gəlməyib və bu faktor tarixlərə söykənir.

> *“Sərhəd hər bir müstəqil dövlət üçün çox əzizdir, vacib bir sahədir və təbiidir ki, sərhədin qorunmasında xidmət göstərən hər kəs xalqımızın, millətimizin hörmət və ehtiramına layiqdir”*
>
> **Ümummilli Lider Heydər Əliyev**



### Sərhəd Qoşunlarımızın keçdiyi tarixi yol

Sərhəd Qoşunlarımızın tarixinə nəzər salsaq, onun çox çətin dövrlərdən keçdiyinin şahidi olarıq. 1919-cu il avqustun 18-də Azərbaycan Demokratik Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında” Qanununa əsasən, Azərbaycan sərhədlərinin mühafizəsi təşkil edildi. Lakin 1922-ci ildə baş verən siyasi təlatümlərdən sonra Azərbaycan SSRİ-nin tərkibinə daxil oldu və bununla da, öz müstəqilliyini itirdi. Bu proses yalnız Ulu Öndər Heydər Əliyevin Azərbaycan SSRİ-yə rəhbər seçilməsindən sonra Onun atdığı konkret addımlar nəticəsində müsbət istiqamətə dəyişdi. Milli hərbi kadrların hazırlanmasında çox böyük işlər görüldü. Ulu Öndər Naxçıvan Ali Məclisinin Sədri olduqdan düz 3 gün sonra - 1991-ci il sentyabrın 6-da Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında qərar verdi. Bu qərarla da Azərbaycanın ilk peşəkar və vahid rəhbərliyə tabe olan milli ordusunun əsası qoyuldu. 1992-ci il avqustun 22-də Naxçıvan sərhəd dəstəsi Azərbaycanın tabeliyinə keçdi və sərhəd dəstəsində milli bayrağımız dalğalandı. Həmin il oktyabrın 18-də isə, Naxçıvan sərhəd dəstəsində andiçmə mərasimi keçirildi.

2002-ci ildə Dövlət Sərhəd Xidmətinin yaradılması ilə Azərbaycan sərhədçilərinin fəaliyyəti müasir dövrümüzün yeni mərhələsinə qədəm qoydu. Bu gün Onun həmin istiqamətdə qurduğu işlər layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla reallaşdırılmaqdadır. Artıq hər birimiz əminliklə deyirik ki, bizim Prezident, bizim Ali Baş Komandan dövlətçiliyimizə, milliyətçiliyimizə bağlı rəhbərimizdir. Elə bu səbəbdəndir ki, bu gün İlham Əliyev Cənabları vurğulayır ki, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var!

Söz yox ki, Dövlət Sərhəd Xidmətinin fəaliyyəti barədə nəticəyə gələrkən, hərbi qurumun rəisi general-polkovnik Elçin Quliyevin xidmətləri təqdirəlayiqdir. Bu gün onun rəhbərliyi altında xidmət keçən hər bir hərbçi məhz bir amili vurğulayır - cənab general hər bir əsgərə öz yaxını, doğması kimi münasibət göstərir, onların qayğıısına qalır və Sərhəd Qoşunlarının daha müasir standartlara cavab verməsi istiqamətində əzmlə çalışır. Elçin Quliyev öz çıxışlarının birində vurğulayıb ki, əldə edilən hər bir nailiyyətin arxasında Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş mütərəqqi siyasət və bu siyasəti uğurla davam etdirən İlham Əliyev faktoru dayanır.

Təbii ki, bu, belədir və həmin uğurlar davam edəcək. Çünki Ali Baş Komandan İlham Əliyev Cənabları tərəfindən göstərilən qayğı nəticəsində DSX-nin maddi-texniki bazası güclənir və Azərbaycan sərhəd mühafizəsində istifadə olunan yeni texnologiyaların tətbiqi, sərhəd mühafizəsinin daha da yüksək səviyyədə təşkilinə şərait yaradır. Son illərdə sərhəd mühafizəsində böyük quruculuq işləri həyata keçirilib. Çoxsaylı sərhəd infrastrukturu yaradılıb və texniki imkanlar artıb. Təlimlər zamanı hər zaman yüksək döyüş hazırlığı nümayiş etdirən sərhədçilərimiz bu imkanlardan yararlanırlar. Keçirilən genişmiqyaslı taktiki təlimlər sərhədçilərin peşəkarlıq səviyyəsinin artmasında xüsusi əhəmiyyət kəsb edir.

Sərhəd Qoşunlarının maddi-texniki bazasının inkişafı istiqamətində də önəmli işlər reallaşdırılmaqdadır. Belə ki, beynəlxalq standartlara cavab verən Sərhədçi İdman Olimpiya Mərkəzinin istifadəyə verilməsi, məhz ölkə rəhbərinin sərhədçilərimizə olan diqqətinin nümunəsidir. Bu kompleks müasir şəraiti ilə idmanın inkişafına xidmət göstərir. Onu da qeyd edək ki, Azərbaycan Silahlı Qüvvələrinin əsas qüvvələrindən sayılan Hərbi-Dəniz Qüvvələri dəniz təhlükəsizliyinə, bilavasitə cavabdehlik daşıyır. Sahil mühafizəmizin gəmiləri digər ölkələrin sərhəd mühafizəsi gəmilərindən üstün imkanlara malikdir.

O da sirr deyil ki, tarixlər boyu geniş sərhədlərə malik olan qədim Vətənimiz dəfələrlə yadelli düşmənlərin təcavüzünə məruz qalıb. Azərbaycan ərazisinin 20 faizinin işğal olunması bunun bariz nümunəsidir. Ancaq Vətənimizin müdafiəsində verdiyimiz şəhidlərimizin ruhu bizləri qisasa çağırır. Artıq tam əminliklə deyə bilərik ki, o gün uzaqda deyil! Güclü ordumuz Ali Baş Komandanımız İlham Əliyevin əmrinə hər an hazırdır. Dövlət Sərhəd Xidmətinin müasir hərbi texnikası düşməni yerlə yeksan etməyə qadirdir. Çünki bu güc hər bir azərbaycanlının qürur yerinə çevrilib.

Azərbaycan sərhədçiləri bu gün çox şərəfli bir missiyanın öhdəsindən layiqincə gəlirlər. Onlar Vətən qarşısındakı borclarını fədakarlıqla yerinə yetirirlər. Lakin bu, bir həqiqətdir ki, ermənilərin xristian ölkələrinə güvənərək, işğal etdikləri Azərbaycan torpaqları, məhz Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti və ordumuzun qalibiyyətli döyüşləri nəticəsində yaxın zamanlarda azad ediləcəkdir. Məhz bu işğalçı ölkənin darmadağın olmasından sonra Azərbaycan dövləti Ermənistan və İran İslam Respublikası ilə sərhədlərdə ən müasir zastavalarını inşa edərək, sərhədlərimizi etibarlı şəkildə qoruyacaqdır.

**RƏFİQƏ KAMALQIZI**





# “Dini mərasimlər: ənənəvilik və müasirlik” adlı seminar-müşavirə keçirilib

***Dünən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Suraxanı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “Dini mərasimlər: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib. Komitədən SİA-ya bildiriblər ki, tədbirdə DQİDK-nın, RİH-in rəhbər şəxsləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov mövzunun əhəmiyyətini yüksək qiymətləndirərək İslam dəyərlərinin öyrənilməsinin və düzgün təbliğ olunmasının, bu sahədə maarifləndirmə işinin təşkilinin daha da gücləndirilməsinin zəruriliyi, habelə dini icmaların cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və sosial məsələlərin həlli prosesinə cəlb edilmələri barədə ətraflı danışıb. İ.Abbasov, eyni zamanda, rayonda bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticələrindən də bəhs edib.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, İslam dini cəmiyyətin inkişafında mütərəqqi rol oynayır, eləcə də dinimiz bizim mənəvi tərbiyəmizə və ruhumuza təsir edir. Ulu öndər Heydər Əliyevin “Dinimiz milli-mənəvi sərvətimizdir” fikrini xatırladan Komitə sədri vurğulayıb ki, xalqımız hər zaman öz milli-mənəvi, o cümlədən dini dəyərlərinə sadiqlik nümayiş etdirir.

İslam dininin elmin, mədəniyyətin inkişafına mühüm töhfələr verdiyini diqqətə çatdıran M.Qurbanlı dinimizin xurafata, dini radikalizmə qarşı olduğunu diqqətə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsinin qazısı, Nardaran qəsəbəsi “Rəhimə xanım ziyarətgahı” məscidi dini icmasının sədri Musa Qasımov və digərləri çıxışlarında qeyd ediblər ki, Məhərrəm ayı ilə əlaqədar bütün ölkə üzrə olduğu kimi, Suraxanı rayonunda da Aşura mərasimləri qanunvericilik çərçivəsində və nümunəvi şəkildə təşkil ediləcək.

# “Birdəfəlik ödəmələr şəhid hərbi qulluqçuların vərəsələrinə veriləcək”



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” 19 aprel 2018-ci il tarixli Fərmanının icrası və ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi istiqamətlərində aparılan işlər müzakirə olunub. Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya verilən xəbərə görə, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, cənab Prezidentin 19 aprel 2018-ci il tarixli Fərmanının icrası ilə əlaqədar aidiyyəti qurumlar tərəfindən nazirliyə təqdim edilmiş siyahılar üzərində dəqiqləşdirmə işləri bu ayın sonunda yekunlaşacaq. Vərəsələrinə birdəfəlik ödəmələr verilməli olan şəhid hərbi qulluqçuların ümumiləşdirilmiş siyahısı nazirliyin saytında təqdim olunacaq. Şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi qaydaları da hazırlanıb. Bu qaydalar ödəmələrin verilməsi prosedurlarının tam şəffaf və vətəndaş məmnunluğuna səbəb olacaq səviyyədə həyata keçirilməsinə imkan verəcək.

Nazir oktyabr ayından birdəfəlik ödəmələrin verilməsi üçün sənədlərin qəbuluna başlanmasının nəzərdə tutulduğunu deyib. O qeyd edib ki, nazirliyin müvafiq siyahısında olan şəhid hərbi qulluqçuların vərəsələrinin notariat orqanlarında vərəsəlikləri təsdiq edildikdən sonra elektron qaydada onlar barədə məlumatlar nazirliyə ötürüləcək və bu məlumatlar əsasında formalaşan növbəlilik qaydasında ödəmələrin verilməsi təmin olunacaq.

# Tomas Qreminger: “Azərbaycan ilə ATƏT arasındakı münasibətlərin daha da inkişafı üçün imkanlar mövcuddur”



Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qreminger ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov ATƏT-in baş katibinin ölkəmizə səfərinin qarşılıqlı əlaqələrin inkişafına böyük töhfə verəcəyinə əminliyini ifadə edib. Azərbaycan ilə ATƏT arasındakı münasibətlərdən danışan Milli Məclisin sədri ölkəmizin 25 ildən artıqdır qurumla uğurlu əməkdaşlıq etdiyini bildirib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli ilə bağlı danışıqlar prosesi barədə məlumat verən Oqtay Əsədov deyib ki, ATƏT-in Minsk qrupu indiyədək işğalçı dövlətə qarşı hansısa bir tədbir görməyib. Bu da Minsk qrupuna olan inamı azaldır. Bütün bunlara baxmayaraq, Azərbaycan Minsk qrupunun vasitəçiliyinə nikbin baxır.

Oqtay Əsədov qeyd edib ki, Azərbaycan regionda həyata keçirilən enerji layihələri çərçivəsində böyük uğurlar qazanıb. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

İlk dəfə ölkəmizdə altı il bundan əvvəl olduğunu deyən ATƏT-in baş katibi Tomas Qreminger bildirib ki, bu səfərinin əsas məqsədi Azərbaycan ilə ATƏT arasında münasibətləri dərinləşdirməkdən ibarətdir. Bildirib ki, Azərbaycan ilə ATƏT arasında münasibətlərin daha da inkişafı üçün imkanlar mövcuddur. Potensial imkanlardan istifadə etməklə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığı daha da möhkəmləndirilmək mümkündür. Tomas Qreminger, həmçinin Azərbaycan nümayəndə heyətinin ATƏT-də olduqca fəallıq nümayiş etdirdiyini söyləyib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Bəhruz Quliyev: “Paşinyanın yanlış siyasəti regional təhdiddir”



“İlk növbədə qeyd etmək istərdim ki, Prezident İlham Əliyev bütün məqamlarda və keçirdiyi hər bir görüşündə işğalçı Ermənistanın istər əvvəlki, istərsə də hazırkı hakimiyyətinin qeyri-konstruktiv mövqelərini sərt şəkildə ittiham edib”. SİA xəbər verir ki, bu fikirləri “Bakı Xəbər”ə “SƏS” Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edərkən, Ermənistanın baş naziri Nikol Paşinyanın qeyri-ciddi bəyanatları barədə irəli sürdüyü fikirlərini şərh edərkən deyib.

Bəhruz Quliyevin sözlərinə görə, Nikol Paşinyan hələ də “məxməri inqilab” eyforiyasından çıxmayıb və bu amil onun istər daxili, istərsə də xarici siyasətində ciddi səhvlərə yol verməsi ilə nəticələnir: “Xüsusilə, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində erməni baş nazirinin “Azərbaycan qondarma “Dağlıq Qarabağ Respublikası” ilə danışıqlar aparmalıdır” tipli bəyanatı bütün beynəlxalq və hüquqi konvensiyaları pozur. Əbəs deyil ki, dövlət başçımız ATƏT-in baş katibi ilə görüşündə bu məsələni vurğulayıb və bildirib ki, Azərbaycan tərəfi bənzər bəyanatları qətiyyətlə rədd edir”.

Siyasi ekspert həmçinin vurğulayıb ki, Prezident İlham Əliyev məhz bu məsələni cənab Tomas Qremingerin nəzərinə çatdırıb və ATƏT-i bir mötəbər təşkilat kimi həmin sərsəm bəyanatlara reaksiya verməsini tələb edib: “Bu, bir daha göstərir ki, Paşinyan hər vəchlə danışıqlar prosesini uzatmağa çalışmaqla, öz hakimiyyət müddətini artırmağa cəhd göstərir. Çünki biz onun Rusiyaya səfəri zamanı ona qarşı göstərilən soyuq münasibətin də şahidi olduq. Uzun illər Rusiyanın vassalı olan Ermənistanda hakimiyyəti “məxməri inqilab” vasitəsilə ələ alan Nikol Paşinyan məhz anti-Rusiya şüarları ilə öz istəyinə nail oldu. İndi isə, dalana dirəndiyinin fərqinə vararaq, Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münqaişəsi ətrafında erməni ictimai rəyi qarşısında xal toplamağa çalışır. Lakin onun bu cür xaltoplama kampaniyası qısa müddətdə iflasa uğrayacaq. İstər beynəlxalq qanunlar, istərsə də digər faktorlar küçədən gəlmiş baş nazirin siyasi ölümünü reallaşdıracaq. Əlbəttə ki, ölkə başçımızın da ATƏT-in baş katibi ilə görüşündə vurğuladığı kimi, bütün məsuliyyətlər bilavasitə Ermənistan tərəfinin, əlxüsus Paşinyanın üzərinə düşəcək”.

“SƏS” Media Qrupunun rəhbəri Prezident İlham Əliyevin Ermənistanda demokratiya adı altında insan haqlarının kütləvi şəkildə pozulması hallarına münasibəti barədə irəli sürdüyü fikirlərinə də fikir bildirərək deyib ki, əslində, erməni baş nazirin siyasi rəqiblərini özündən kənarlaşdırması istiqamətində apardığı “antikorrupsiya kampaniyası”, yaxud siyasi təqiblər diktatura rejiminin aşkar göstəricisidir: “ Bu baxımdan, dövlət başçımız haqlı olaraq, ATƏT-ə yalnız Dağlıq Qarabağ münaqişəsində Paşinyanın tutduğu yanlış mövqeyini deyil, bütövlükdə onun avtoritar rejim yaratmasına biganə qalmaması ilə bağlı müraciət edib. Belə ki, bütün bunlar - yəni işğalçı Ermənistan rəhbərliyinin davranışları bütövlükdə regional təhlükəsizliyimizə qarşı təhdid hesab oluna bilər. Bu kimi təhdidlərin aradan qaldırılması üçün Prezident İlham Əliyev bütün siyasi iradəsini və qətiyyətini ortaya qoyub. Hesab edirəm ki, ATƏT-in baş katibi Tomas Qreminger də həmin müraciətləri, eyni zamanda haqlı tələbləri nəzərə alaraq, işğalçı Ermənistanın və onun avtoritar rəhbərliyinin qarşısında ciddi məsələlər qaldıracaq”.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 sentyabr 2018-ci il

# Nikolun fiaskosu - hər şey onun istədiyi kimi getmir

## Rusiya uğursuzluğu və ölkədaxili narazılıq tandemi

***Nikol Paşinyanın Rusiya səfərinin ardınca rəsmi Kremlin həmin səfərlə bağlı ciddi maraq sərgiləməməsi, bir daha sübut etdi ki, Ermənistanda mövcud olan anti-Rusiya meyilləri, xüsusilə, ermənilərin yeni hökumətinin daha çox Qərbə istiqamət alması reallığı iki ölkə arasındakı münasibətləri daha da soyuq müstəviyə doğru aparmaqdadır. Buna misal kimi, Ermənistanın köhnə hakimiyyətləri - Koçaryan və Sarkisyan sistemlərində təmsil olunmuş şəxslərin əksəriyyətinin Rusiyada sığınacaq tapmalarını, eləcə də, Paşinyanın göstərdiyi bütün cəhdlərinə baxmayaraq, həmin adamların Ermənistana ekstradisiya olunmamalarını göstərə bilərik.***



### Rusiya Paşinyanın axtarışa verdiyi şəxslərə siyasi sığınacaq təqdim edir

Ermənistan parlamentinin "Daşnaksütyun" fraksiyasının deputatı Armen Rustamyan "aysor.am" portalına açıqlama verərkən deyib ki, bir sıra siyasilərə siyasi sığınacaq elə-belə verilmir. O, buna misal kimi, 2007-2008-ci illərdə Ermənistanın müdafiə naziri olmuş, ondan önсəki illərdə isə, bir sıra yüksək hərbi mövqelərdə təmsil edilmiş Mikael Arutunyanı göstərib.

"İnsanlara o zaman siyasi sığınacaq verilir ki, onlar vətənlərinə geri dönərkən, həbs olunmaq təhlükəsi ilə üz-üzə qalsınlar" deyən A.Rustamyan, hesab edir ki, haqqında bəhs edilən şəxsin ekstradisiyası inandırıcı görünmür. Belə ki, MDB məkanında axtarışa verilən Ermənistanın sabiq müdafiə naziri, general-leytenant Mikael Arutunyanın adı və soyadı, məhz Rusiya Federasiyasının ərazisində axtarış siyahısından çıxarılıb. "Bu isə, o deməkdir ki, Mikael Arutunyan Ermənistana ekstradisiya olunmayacaq" deyə "aysor.am" yazır.

Yeri gəlmişkən, daha bir neçə erməni hərbi-siyasi sisteminin keçmiş nümayəndələri var ki, onlar da hal-hazırda Rusiya ərazisində bu və ya digər şəkildə məskunlaşıblar. Lakin həmin adamların da Ermənistana təhvil verilməsi məsələsində Kreml inkarçı rolunu oynamaqda, Ermənistanın tələblərini rədd etməkdədir. Məsələn, KTMT-nin hazırkı baş katibi Yuri Xaçaturovu da bu sıraya əlavə edə bilərik. Bu fakt isə, bir daha nəticəyə gəlməyə zəmin yaradır ki, artıq Rusiya Ermənistanı siyasi, eləcə də, hərbi müttəfiq olaraq, ciddiyə almamaqdadır. O cümlədən, bu gün "Bizim Rusiya ilə münasibətlərimiz əvvəlki qaydada qalır və inkişaf edəcək" tipli bəyanatlarla çıxış edən Nikol Paşinyanın "məxməri inqilab" zamanı hakimiyyəti ələ almasında, məhz anti-Rusiya şüarları səsləndirməsi də Kremlin hafizəsindən silinməyib.

### Aleksandr İskandaryan: "Rusiya ilə işləməyi yalnız prezidentlərin görüşü ilə kifayətləndirmək metodoloji tərəfdən doğru seçim deyil"

Bu arada, Qafqaz İnstitutunun direktoru, politoloq Aleksandr İskandaryan digər erməni xəbər portalı "1in.am"-a açıqlamasında deyib ki, erməni-rus münasibətlərində problemlər mövcuddur Rusiya buna müvafiq olaraq, qətiyyətli addımlar atacaq. "Bu addımlar müxtəlif sferalarda tətbiq oluna bilər - Ermənistanla hərbi əməkdaşlıqda, Qarabağ məsələsində və s." deyən erməni politoloqa görə, Ermənistanla iqtisadi əməkdaşlıq məsələsində, məsələn, qazın qiyməti məsələsində Rusiyanın təsirini görmək olar: "Feysbukda analitiklik və politoloqluq edənlər bunu heç də yaxşı qavramırlar. Baş verənlərlə bağlı kifayət qədər qeyri-ciddi qeydlər aparılır, hətta Rusiyanın Hindistanla əvəzlənə biləcəyini də yazanlar tapılır".

İskandaryan hesab edir ki, ümumilikdə, situasiya anlaşılandır: "Əlbəttə ki, Ermənistanın siyasi elitasında baş nazirin fəaliyyətini müşahidə edənlər anlayırlar ki, Rusiya ilə işləmək asan məsələ deyil, lakin Rusiya ilə işləməyi yalnız prezidentlərin görüşü ilə kifayətləndirmək metodoloji tərəfdən doğru seçim deyil".

Erməni politoloquna görə, artıq erməni ictimai-siyasi rəyi elə siqnallar alır ki, həmin siqnalları xəbərdarlıq kimi, qəbul etmək lazımdır: "Bu, hələ ki, xəbərdarlıqdır. Bizdə baş verənlərlə bağlı Rusiyada narahatlıqların yaşanması isə artıq aydındır".

### "Qolos Armenii": "Səfər çərçivəsində heç bir sənədə imza atılmadı, heç bir birgə bəyanat səsləndirilmədi, brifinq keçirilmədi ki, bu da həmin səfərin yekunları ilə bağlı geniş şəkildə müzakirələrin yaranmasına səbəb oldu"

"Qolos Armenii" qəzeti isə 11 sentyabr tarixli nömrəsində yazır ki, Ermənistanın baş naziri Nikol Paşinyanın Moskva səfəri hələ çox müzakirə olunacaq. Özü də həmin səfər çoxqütblü xarakterdə qiymətləndiriləcək... Səfərin müsbət tərəfləri ilə yanaşı, mənfi tərəflərinin də olduğunu xatırladan erməni nəşri çoxsaylı fikir ayrılıqlarını belə izah edib: "Səfər çərçivəsində heç bir sənədə imza atılmadı, heç bir birgə bəyanat səsləndirilmədi, brifinq keçirilmədi ki, bu da həmin səfərin yekunları ilə bağlı geniş şəkildə müzakirələrin yaranmasına səbəb oldu". Adıçəkilən nəşrə görə, səfərin "uğurlu nəticələrini", sadəcə, təxmini olaraq qiymətləndirmək olar ki, bu da qısamüddətli salamlaşma və iki ölkə liderlərinin danışıqlara qədər bir-birlərinə xoş sözlər deməsidir.

### Erməni nəşri: "Əgər biz başını quma soxmuş dəvəquşu deyiliksə, cavab bəllidir: əlbəttə, Moskvanın bu cür imkanları var..."

"Qolos Armenii" daha bir maraqdoğurucu fakta toxunub: "Əgər həqiqətdən danışırıqsa, onda belə bir sadə sual verək: Rusiyanın Ermənistanın daxili işlərinə müdaxilə etməsinə gücü çatarmı? Əgər biz başını quma soxmuş dəvəquşu deyiliksə, cavab bəllidir: əlbəttə, Moskvanın bu cür imkanları var. Özü də, yalnız Moskvada deyil, digər ölkələrdə də, o cümlədən, regionlarda da. Necə yəni ABŞ-ın Ermənistanın daxili məsələlərinə təsir etməyə imkanı ola bilməzmi? Ya da İngiltərənin? Yaxud Fransanın, eləcə də, İranın? Əlbəttə, bütün bu ölkələrin müvafiq resursları var... Başqa sual: onlar həmin resurslarını istifadə edəcəklər, ya yox? Əgər cavab müsbətdirsə, onda hansı dərəcədə? Paşinyanın bəyanatlarından asılı olmayaraq, bu sualın cavabı isə, belədir ki, hər şey onun hökumətinin siyasətindən asılıdır. Əgər bu siyasət ölkələrin maraqlarına təhlükə yaradacaqsa, özü də geosiyasi konsepsiya baxımından, həmin təhlükə mövcud olacaqsa, bu zaman, aydındır ki, onlar öz maraqları baxımından, maraqlarını müdafiə etmək baxımından, çıxış edəcəklər. Belə olub, belə də qalır və qalacaq..."

Göründüyü kimi, bu gün Paşinyanın yalnız Rusiya ilə deyil, hətta digər xarici ölkələrlə münasibətləri normal vəziyyətdə deyil və hətta erməni ictimai rəyində belə nəticəyə gəlinir ki, Nikol Paşinyan beynəlxalq siyasi çevrələrdə ciddi siyasətçi kimi deyil, "inqilabçı polyaçi" olaraq tanınır. Hər halda, bunu biz deyil, erməni ictimai rəyi düşünür.

**Rövşən NURƏDDİNOĞLU**

# "Telefon danışıqlarının yayılması üç reallıqdan xəbər verir"

***"Ermənistanın Milli Təhlükəsizlik və Xüsusi İstintaq Xidmətlərinin rəhbərləri arasında Köçəryanla Xaçaturovun tutulmaları ilə bağlı telefon danışıqlarının yayılması üç reallıqdan xəbər verir". SİA-nın verdiyi məlumata görə, bunu millət vəkili Sahib Alıyev deyib.***

"Birincisi, ondan xəbər verir ki, bu ökənin xüsusi xidmət orqanları və həmin qurumlara rəhbərlik edənlər "xüsusi nəzarət" altındadırlar, bəlli mərkəzlər onların atdıqları hər addımdan xəbərdardırlar və əgər bu cür davam etsələr, yeni ifşaedici faktlar, eyni zamanda da digər əməliyyat xarakteli hallarla rastlaşacaqlar.




İkincisi, bu, Rusiya ilə Ermənistan arasında əlaqələrin Paşinyanın qeyd etdiyi "ən yüksək səviyyə"də deyil, bir siyasətçi kimi onun səviyyəsiyyəsində olduğunun göstəricisidir. Belə görünür ki, Ermənistanın baş naziri Moskvaya gedərkən Kremlin öncədən anons etdiyi "ciddi suallar"a ondan ciddi cavab alınmayıb.

Üçüncüsü, bu telefon danışıqları ordakı həbslərin siyasi xarakterli olmasının növbəti təsdiqidir. Bəli, Köçəryan və Ermənistandakı hərbi xuntanın digər təmsilçiləri əsl cinayətkarlardır. Ancaq Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəhbərinin Xüsusi İstintaq Xidmətinin rəhbərinə, "Xaçaturova toxunulmasın bu, Rusiyanın xoşuna gəlməyəcək, onun yerinə Ohanyan tutulsun" kimi məsləhətləri burada edilən həbslərin arxasında qisasçılığın dayanmasından və hüquqdan yox, siyasətdən söhbət getdiyini ortaya qoyur"-deyə, deputat fikrini tamamlayıb.

# Vladimir Putinin Bakıya səfəri Ermənistanda ciddi təşviş yaradıb

## "Rusiya tərəfi sentyabrın 25-də Bakıda baş tutacaq görüşdə Dağlıq Qarabağla bağlı ciddi bəyanatlar verməlidir"

***Rusiya Prezidenti Vladimir Putinin sentyabrın 25-də Azərbaycana rəsmi səfəri planlaşdırılır. Ekspertlərin gəldiyi qənaətə görə, səfər çərçivəsində iki ölkə arasında əlaqələrin inkişafı, Dağlıq Qarabağla bağlı məsələlər, regiondakı mövcud vəziyyət və digər aktual məsələlər müzakirə olunacaq. Söhbət etdiyimiz müsahiblərimiz Vladimir Putinin Bakıya səfərinin Ermənistanda ciddi təşviş yaratdığını bildirib.***

### Politoloq Elşən Manafov: "Rusiya çox gözəl başa düşür ki, Azərbaycan Cənubi Qafqazın lider dövlətidir"



- Rusiya prezidenti Vladimir Putinin Azərbaycana səfəri Azərbaycan ictimaiyyətində çox böyük maraq doğurur. Burada maraqlı məqam ondan ibarətdir ki, Moskvada bu ayın əvvəlində Azərbaycan və Rusiya prezidentləri arasında yüksək səviyyədə görüş baş tutdu. Rusiya prezidentinin Azərbaycana olan məlum səfərindən maraq o kontekstdə böyükdür ki, ayın əvvəlində Azərbaycan-Rusiya prezidentlərinin baş tutan görüşündə müəyyən məsələlərin müzakirəsinə vaxt qalmadığı və ya o məsələlər ətrafında danışıqların növbəti raunduna və mərhələsinə ciddi ehtiyac olduğundan prezidentlərin 25 sentyabr görüşləri çox böyük əhəmiyyət kəsb edəcəyi ehtimal olunur. Yəni bunun həm geosiyasi, həm iqtisadi, həm də siyasi əhəmiyyəti olacaq. Rusiya tərəfinin Azərbaycan hakimiyyətindən müəyyən gözləntiləri var. Rusiya çox gözəl başa düşür ki, Azərbaycan Cənubi Qafqazın lider dövlətidir. Həm hərbi gücünə, iqtisadi qüdrətinə görə, maliyyə resurslarına görə və təbii ki, Avropa Enerji Təhlükəsizliyində oynadığı rol Rusiyaya məlumdur. Eyni zamanda, Nəqliyyat Komnikasiya üzərində yerləşən dövlətdir. Bu mənada, Rusiya Azərbaycanla bu sahədə də əməkdaşlığı genişləndirmək fikrindədir. Ancaq təbii ki, Azərbaycan xalqını düşündürən, narahat edən ən ciddi məsələ Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində perspektivdə oynaya biləcəyi roldur. Biz bilirik ki, Rusiyanın Ermənistan iqtidarına təsir göstərmək üçün çox böyük imkanları var. Hətta Ermənistanda hakimiyyətin dəyişilməsinə və Paşinyan iqtidarının Qərb yönümlü siyasətinə baxmayaraq, Rusiyanın Ermənistanın indiki hakimiyyətinə təsir imkanları kifayət qədər böyükdür, genişdir. Ermənistan hakimiyyətinin Qərbə yönəlmiş siyasəti Rusiya iqtidarını ciddi şəkildə narazı salıb. Güman edirik ki, Ermənistan-Rusiya münasibətlərində olan bu problemlər bütün hallarda Dağlıq Qarabağ münaqişəsinin, məhz Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə təsir göstərə biləcək kompromentlər sırasına aid edilə bilər. Düşünürük ki, ölkədə ən ciddi əməkdaşlıq imkanlarına malik olan tərəf kimi, Rusiya Azərbaycanın əhəmiyyətinin mahiyyətinə varır və bu mənada, Azərbaycanla münasibətləri perspektivdə gələcək inkişafı, regionda sülh, təhlükəsizlik, əməkdaşlıq, regionun tərəqqisi ilə bağlı amillər Azərbaycanın iradəsindən əhəmiyyətli dərəcədə asılı olduğundan Rusiya tərəfi, məhz sentyabrın 25-də Bakıda baş tuta biləcək görüşdə Dağlıq Qarabağla bağlı ciddi bəyanatlar verməlidir. Bu bəyanatların veriləcəyi təqdirdə və Rusiya gercəkdən Dağlıq Qarabağ probleminin yaxın perspektivdə Azərbaycan dövlətçiliyinin xeyrinə, beynəlxalq hüquq normaları çərçivəsində həllinə kömək edəcəyinə vəd edəcəyi təqdirdə, güman edirəm ki, Rusiya iqtidarı Azərbaycanla bağlı gözləntiləri də perspektivdə baş tuta bilər. Düzdü, bütün bu məsələlərə münasibət bildirmək Azərbaycanın dövlət başçısının səlahiyyətlərinə aid olan məsələdir. Amma güman edirik ki, məhz Dağlıq Qarabağ probleminin həllində Rusiya Ermənistan tərəfinə təzyiq edib, işğal altında olan torpaqların yaxın perspektivdə Azərbaycana qaytarılacağını vəd edəcəksə, biz Rusiyanı narahat edən məsələlər ətrafında müəyyən komprominslərə və güzəştlərə gedə bilərik.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Qərblə Rusiya arasında yenidən alovlanan soyuq müharibə Azərbaycanın güclü dövlət olaraq önəmini artırmaqdadır



- Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın xarici siyasət kursu bu gün də Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu xarici siyasət kursu balans siyasəti də adlandırılır. Aparılan uğurlu xarici siyasət ötən dövrlərdə Azərbaycanın mövqeyini beynəlxalq aləmdə xeyli gücləndirdi və müsbət mənada, yerini müəyyənləşdirdi. Eyni zamanda, Azərbaycan bu gün dünyada istər Qərbdə, istərsə də regionda etibarlı tərəfdaş götürdüyü öhdəliklərə sədaqətli və prinsipial bir ölkə olduğunu sübut etdi. Aparılan iqtisadi islahatlar da ölkəmizin gücünü artıraraq, dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmaqdadır. Bu gün, tam əminliklə demək olar ki, Azərbaycan regionun güclü və stabil dövlətidir. Təbii ki, belə bir vəziyyətdə Azərbaycana qarşı dünyanın güclü dövlətlərinin də müxtəlif maraqları artmaqdadır. Buna, əsasən, iqtisadi maraqlar daxildir. Ancaq son vaxtlar Azərbaycanın artan nüfuzu artıq digər maraqları da ortaya çıxarmışdır. Bu da strateji tərəfdaşlıq marağıdır. Azərbaycan regionda dinc qonşuluq siyasəti apararaq, yalnız Türkiyə ilə strateji müttəfiqlik səviyyəsində əməkdaşlıq edirdi. Ermənistan istisna olmaqla, İran, Rusiya, Qazaxıstan və digər qonşularla iqtisadi-mədəni əlaqələri inkişaf etdirir, onların maraqlarına qarşı qaydalar çərçivəsində hər hansı bir çıxış etmirdi. Sovet İttifaqı dağılandan sonra Rusiyanın yenidən inkişaf edərək, dünya siyasətində önəmli oyunçuya çevrilməsi Azərbaycanın xarici siyasət kursunda müəyyən dəyişikliklərə zərurət yaratmışdı. Məhz aparılan bu siyasət, ilk öncə, iqtisadi əlaqələrdə öz töhfəsini verməyə başlamışdı. Bu gün Rusiya ilə ticari əlaqələrimizin səviyyəsi yüksək templə artmaqdadır. Ən əsası isə, Azərbaycan Rusiya istehsalı olan silahların əldə etməsində razılaşaraq, müasir ordu quruculuğunda mühüm irəliləyişə nail olmuşdur. Bu da Ermənistanın təcavüzü qarşısında başlanan müharibədə Azərbaycanın möqeyini xeyli gücləndirmişdir. Bu gün Azərbaycan işğal olunmuş torpaqlarını tam azad etmək iqtidarındadır. Son vaxtlar isə Rusiyanın özünü strateji müttəfiqi adlandırdığı Ermənistanda baş verən hadisələr fonunda yaranan anti-Rusiya əhval-ruhiyyəsi Azərbaycanın daha etibarlı olduğunu subut etməkdədir. Bundan başqa, dünyada Qərblə Rusiya arasında yenidən alovlanan soyuq müharibə Azərbaycanın güclü dövlət olaraq önəmini artırmaqdadır.

Azərbaycan özünün apardığı xarici siyasət nəticəsində, eyni zamanda, bu gün regionun əsas güclü dövlətləri olan İran, Türkiyə və Rusiya arasında da birləşdirici rol oynayır ki, bunu da nəticəsində, Azərbaycanın önəmli əhəmiyyəti artmaqdadır. Məhz bu amillər Rusiyanın Azərbaycana marağının artmasına səbəb yaratmışdır. Hesab edirəm ki, sentyabr ayının 25-də Rusiya prezidentinin Azərbaycana səfəri də iki ölkə arasında strateji müttəfiqliyin möhkəmlənməsinə hesablanmış bir səfərdir. Burada Rusiyanın Azərbaycana olan marağı qarşılığında Azərbaycanın da maraqlarının təmin olunması məsələsi önəmli yer tutur. Təbii ki, Azərbaycanın ən əsas problemi olan Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad olunması məsələsidir. Nəzərə almaq lazımdır ki, konfliktin həll olunmasında əsas rollardan birini Rusiya oynayır. Yuxarıda söylədiklərimin kontekstində, yəqin ki, Azərbaycan və Rusiya arasında mühüm əməkdaşlıq sənədləri bu səfər nəticəsində imzalanacaqdır. Əvvəlcədən dəqiq nəsə demək çətindir yəqin ki, bu görüş zamanı aparılacaq müzakirələrdən sonra bilinəcəkdir. Ancaq əminliklə demək olar ki, Azərbaycan Prezidentinin apardığı siyasət Rusiyanın mövqeyini müsbət istiqamətdə Azərbaycana qarşı tam dəyişmişdir. Bu da, bizə ümid verir ki, bu səfərin nəticəsi olaraq, Rusiya və Azərbaycan arasında imzalanacaq və ya əldə olunacaq razılaşmalarda əsas prioritet məsələ torpaqların azad olması olacaqdır. Düzü, mən bu səfərdən Azərbaycanın xeyrinə bir çox məsələlərin həll olunmasını gözləyirəm.

### "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: "Azərbaycanla Rusiya arasında münasibətlər normaldır"



- Azərbaycanla Rusiya arasında mövcud münasibətlər normaldır. Ən azı, bu ölkə prezidentlərinin il ərzində bir neçə dəfə görüşməsinin adət halını alması, bəzən prezidentlərin hər iki ölkənin strateji müttəfiq səviyyəsində olduğunu çəkinmədən açıq vurğulaması, hər iki ölkənin bir çox beynəlxalq məsələlərə münasibətdə eyni mövqedən çıxış etmələri və bir çox digər məsələrdə birgə hərəkətləri hər iki ölkə arasında dostluq və mehriban qonşuluq mühitinin mövcudluğuna dəlalət edir. Lakin bu müsbət münasibətlərdən nə qədər çox bəhs etsək də, Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ probleminin yaranmasında, torpaqlarımızın 20 faizinin işğal olunmasında, 1 milyondan çox əhalimizin qaçqın, köçkün vəziyyətinə düşməsində, Qarabağda baş vermiş bir çox faciələrin, o cümlədən, XX əsrin ən dəhşətli soyqırımı olan Xocalı soyqırımının törədilməsində Rusiyanın hərbi qüvvələrinin iştirakını danmaq, inkar etmək mümkün deyil! Eyni zamanda, 30 ilə yaxın müddətdə münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll edilməsinə imkan verməyən, işğal altında olan Dağlıq Qarabağda at oynadan erməni separatçılarına, mütəmadi hərbi qüvvə və texnika ilə yardım göstərən, Ermənistanı özünün forpostu elan edən Rusiyanın prezidenti V.Putinin sentyabrın 25-də Azərbaycana edəcəyi növbəti, ənənəvi səfərindən, xüsusən, Dağlıq Qarabağ və işğal altında olan torpaqlarımızın azad olunması istiqamətində hər hansı müsbət addım atılacağını gözləmirəm. Həmişə olduğu kimi, budəfəki səfər də daha çox Rusiyanın problemlərinin həll olunmasında Azərbaycanın imkanlarından istifadə ön planda olacaq.

**GÜLYANƏ**

# İsa Həbibbəyli: "Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi aparılan uzaqgörən siyasətin bəhrəsidir"



Naxçıvan şəhərində "Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edən AMEA-nın vitse-prezidenti, akademik, millət vəkili İsa Həbibbəyli Naxçıvan şəhərinin 2018-ci il üçün "İslam Mədəniyyətinin Paytaxtı" elan olunması ilə əlaqədar keçirilən tədbirlərin qədim diyarın bütün sahələrdəki inkişafını dünyaya göstərmək kimi dəyərləndirib: "Bu günədək Avropanın bir çox tanınmış şəhərlərində olduğumdan, deyə bilərəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə, illərdən bəri aparılan uğurlu siyasət nəticəsində, qədim diyar əsl Avropa məkanına çevrilib. Fərəhlə demək olar ki, bu gün qədim torpaqda yeni nəsil şair və yazıçılar, elm adamları yetişib, hətta bir sıra sahələrdə elmi məktəblər də yaranmağa başlayıb. Bu mənada, konfransın keçirilməsi, Nuhun məskəni sayılan Naxçıvanın binə olmasından indiyədək, keçdiyi möhtəşəm yolu dünyaya bəyan etmək, çatdırmaq işində həmin ziyalılar üçün böyük fürsətdir. Tədbirdə iştirak edən xarici ölkələrin elm adamları da buranın qədimliyi, müasir inkişafı ilə yaxından tanış olur və heyranlıqlarını bildirirlər. Bu da, hər birimizə böyük qürur və sevinc bəxş edir. Aparılan son tədqiqatların nəticələri bu konfransda elan olundu. Elə müddəalar var idi ki, onlar ilk dəfə, məhz Naxçıvanda səsləndirilirdi, birgə müzakirələr və fikir mübadilələri aparıldı. Təbii ki, bu da qədim diyarda elmin bütün sahələrinin gələcəkdə daha da inkişafına böyük təkan verəcək.

İ.Həbibbəyli, onu da vurğulayıb ki, Naxçıvanın "İslam Mədəniyyətinin Paytaxtı" seçilməsi aparılan uzaqgörən siyasətin bəhrəsidir: "Bu əlamətdar hadisə diyarın sürətli inkişafına təkan verməklə yanaşı, həm də Naxçıvanı dünyaya tanıtmaq, blokadanı bir daha qırmaq, böyük yüksəliş üçün yeni qapılar açmaq məqsədləri daşıyır. Əminliklə demək olar ki, Naxçıvanda "İslam Mədəniyyətinin Paytaxtı" tədbirlərinin yüksək səviyyədə keçirilməsi artıq həmin istiqamətlərin hər biri üzrə yeni inkişafa böyük stimul olub".

**R.KAMALQIZI**



# Naxçıvanda təhsil işçilərinin ənənəvi konfransı olub

***"Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilib. Konfransda muxtar respublikanın bütün təhsil müəssisələrinin rəhbərləri, Təhsil Nazirliyinin əməkdaşları, qabaqcıl müəllimlər iştirak ediblər.***

Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov açaraq, təhsilə göstərilən dövlət qayğısından və qarşıda duran vəzifələrdən danışıb. Qeyd olunub ki, muxtar respublikamızda təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir. Ötən dövr ərzində, muxtar respublikamızda 200-dən çox təhsil müəssisəsi üçün yeni binalar tikilib və ya mövcud binalar əsaslı şəkildə yenidən qurulub. Əvvəlki illərdə olduğu kimi, 2018-ci ildə də tikinti-quruculuq işlərinin önündə təhsil quruculuğu dayanıb. Belə ki, 2018-ci ilin birinci yarımili ərzində 904 şagird yerlik 3 ümumtəhsil məktəbi və Ordubad rayon təhsil şöbəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq, istifadəyə verilib. Hazırda da bu sahədə işlər davam etdirilir.

Konfransda muxtar respublikada pedaqoji kadr hazırlığındakı təkmilləşmələrdən, fənn kurikulumları və təhsil standartlarının tətbiqindən, informasiya-kommunikasiya texnologiyalarına, təlim prosesində, geniş yer ayrılmasından və digər məsələlərdən də danışılıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili, elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin yaradılması, elmi dərəcəli müəllimlər tərəfindən ümumtəhsil məktəblərində nümunəvi dərslərin keçilməsi şagirdlərin biliklərinin artırılmasında, vətənpərvərlik və milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə olunmasında, qabaqcıl təcrübənin öyrənilməsi və informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılmasında mühüm rol oynayır.

Nazir onu da qeyd edib ki, bu il ali və orta ixtisas təhsili müəssisələrinə 2627 məzun sənəd verib, onlardan 2023-ü, yaxud 77 faizi tələbə adını qazanıb. 2017-2018-ci tədris ilində məzunlardan 13-ü "Qızıl", 11-i "Gümüş" medalları, 151-i isə fərqlənmə attestatına layiq görülüb.

"2018-2019-cu tədris ili təhsildə ciddi dönüş ili olmalı, mövcud nöqsanlar, qısa müddətdə aradan qaldırılmalıdır" - sözlərini deyən nazir əlavə edərək söyləyib ki, əvvəlki illərdə olduğu kimi, bu yeni dərs ili də uğurlu olmalıdır.

Konfransda Şərur və Ordubad rayon təhsil şöbələrinin müdirləri Tuncay Cəfərov və Samir Zeynalov, Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru Natiq Əhmədov, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov, Şərur Texniki - Peşə və Sürücülük Məktəbinin direktoru Vəfadar Ələkbərov, Turizm-Diyarşünaslıq Mərkəzinin direktoru Murad Babayev və başqaları çıxış edərək, təhsildəki uğurlardan danışıblar.

Sonda konfransın qətnaməsi qəbul edilib.

**R.HÜSEYNOVA**

# Yuri Xaçaturovun oğulları kimlərə və niyə söydülər?

## *"Müharibə generalını yalnız cinsi azlıq nümayəndəsi təhqir edə bilər"*





KTMT-nin baş katibi Yuri Xaçaturovun oğulları İqor və Qriqori Xaçaturovlar milli təhlükəsizlik xidməti ilə xüsusi istintaq idarəsi rəhbərlərinin baş qərargahın rəhbəri Sasun Xaçatryanla birgə telefon danışıqlarının audioyazısında ataları barədə təhqiramiz fikirlər səsləndirməsinə kəskin münasibət bildiriblər. Bununla bağlı "aysor.am" portalı yazır. Məlumatda bildirilir ki, Qriqori Xaçaturov Sasun Xaçatryana münasibətdə deyib ki, yalnız cinsi azlıq nümayəndəsinə xas olan adam müharibədə iştirak etmiş generalı təhqir edə bilər: "Hüquq fakültəsində təhsil aldığın müddətdə bir müharibə generalı ki, sənin və ailənin təhlükəsizliyini təmin edibsə və sən həmin generalı təhqir edirsənsə - bunu yalnız cinsi azlıq nümayəndəsi edə bilər".

Yuri Xaçaturovun digər oğlu İqor Xaçaturov isə deyib: "Sasun Xaçatryan, kim sənə mənəvi haqq verib ki, öz ömrünü orduya həsr edənə qarşı təhqiramiz tonda və istehza ilə danışasan? Kim sənə rəsmi hüquqi icazə verib ki, müharibə keçmiş insan barədə və ölkəmizi bu səviyyədə (KTMT-də-red.) təmsil edən şəxs haqqında belə danışasan? Mənim atam 1993-cü ildə atəş altında qalan Şəmşəddindən ailəsini köçürərkən, sən sakit şəkildə hüquq fakültəsində təhsil alırdın, özü də hərbi xidmət keçmədən. Üstəlik, ordu quruculuğunda zəhməti olan insan barədə gülüş dolu fikirlər səsləndirirsən. Hərbi xidmət keçmədiyinə görə isə, sən tutduğun baş qərargah və qarnizon rəisi vəzifələrində çalışa bilməzsən".

Xatırladaq ki, Yuri Xaçaturov hazırda KTMT-nin baş katibi vəzifəsini daşıyır və Ermənistanda ona qarşı cinayət işi qaldırılıb. Nikol Paşinyan hökuməti hər vəchlə onun vəzifədən kənarlaşdırılaraq, Rusiyadan Ermənistana ekstradisiya olunmasını Kremldən tələb etsə də, həmin tələb rədd edilib.

Qeyd edək ki, Yuri Xaçaturov 1 mart qırğınında əsas rol oynayan tərəflərdən biri kimi ittiham olunmaqdadır.

# Avqustda Azərbaycanda miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulması ilə əlaqədar 2043 qərar qəbul edilib

Avqust ayında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı ilə bağlı Dövlət Miqrasiya Xidmətində (DMX) 91 min 626 müraciət qeydə alınıb.

DMX-dən AZƏRTAC-a bildiriblər ki, ay ərzində Xidmətə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınması, vətəndaşlığa qəbul, bərpa, vətəndaşlıqdan çıxma, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin alınması və mövcud iş icazələrinin müddətlərinin uzadılması üçün 7 min 327 müraciət daxil olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun araşdırılıb və müvafiq qərarlar qəbul olunub.

DMX avqustda ölkə ərazisində keçirilən tədbirlər və aparılan araşdırmalar nəticəsində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən respublikamızın miqrasiya sahəsində, o cümlədən inzibati qanunvericiliyin tələblərinin pozulması ilə əlaqədar 2043 qərar qəbul edib. Qərarlardan 1236-sı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərinin pozulmasına görə ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmamaqla inzibati cərimə tətbiq edilməklə bağlı olub. Onlardan 1078-i ölkəni tərketmə, 158-i ölkə ərazisində yaşamalarını qanuniləşdirmə barədədir.

Ölkə ərazisinə girişinə məhdudiyyət qoyulma ilə bağlı qəbul edilmiş 778 qərardan 146-sı İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə respublikanın hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla inzibati cərimə tətbiq olunma, 632-si isə Miqrasiya Məcəlləsinin müvafiq maddələrinin tələblərinin pozulması ilə əlaqədar olub. 16 qərar müvəqqəti və daimi yaşamaq üçün sənədin yeni sənədlə əvəz olunması, 7-si əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yaşayış sahəsi vermiş Azərbaycan vətəndaşları və ya respublikamızda yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada onların vaxtında olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlərin görülməməsi ilə bağlıdır.

# Qəhrəmanlıq və sərkərdəlik qabiliyyətinə görə, "Trablis qəhrəmanı" kimi şöhrətlənən Nuru paşa

***1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq, şəhəri erməni-bolşevik işğalından azad edib. Bununla da həm Azərbaycanın müstəqilliyi təmin olunmuş, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. Bildiyimiz kimi, 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi. Müstəqilliyə təzə qovuşmuş və beynəlxalq aləmdə hələ tanınmayan gənc dövlətimizin isə ərazi bütövlüyünü təmin etmək imkanları hələ yetərincə deyildi. Belə bir şəraitdə, özünün çox ağır durumuna baxmayaraq, Osmanlı Türkiyəsi qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru paşanın komandanlığı ilə 10 minə yaxın hərbi qüvvələrini Azərbaycana göndərdi.***



Bir əsr bundan əvvəl, Nuru Paşanın Azərbaycanda olduğu zaman göstərdiyi igidlik, şücaət və xilaskarlıq missiyası onu cəsur sərkərdə kimi tanıtdı. Azərbaycan tarixinə adını həkk etmiş Nuru Paşanın keçdiyi həyat yolunun maraqlı və səhifələnməli çox məqamları var. 1889-cu ildə İstanbulda hərbçi Əhməd Tofiqin ailəsində doğulan Nuru Paşa 17 yaşında ikən quru qoşunları hərbi məktəbinə daxil olub və 1909-cu ildə həmin məktəbi leytenant rütbəsi ilə bitirərək, 3-cü Ordu Komandanlığında zabit kimi xidmətə başlayıb. 1910-cu ilin yanvarından padşaha məxsus piyada bölüyünə keçirilib. Onunla bağlı mənbələrdə qeyd olunur ki, 1913-cü ildə yüzbaşı, 1916-cı ildə minbaşı, 1918-ci ildə yarbay (başqa sözlə, 1913-cü ildə kapitan, 1916-cı ildə mayor, 1918-ci ildə podpolkovnik) rütbələri alıb. 1914-cü ilin iyulunda Türkiyənin Byana səfirliyinin attaşeliyinə, həmin ilin avqustundan isə hərbi attaşeyə yavər təyin edilib. Birinci Dünya müharibəsi illərində Nuru Paşa Şimali Afrika cəbhəsinə göndərilib. O, Liviya ərazisində cəbhə komandanı kimi Türkiyəyə və onun müttəfiqlərinə qarşı cəbhə yaradan quvvələrlə döyüşlərə rəhbərlik edirdi. Bu cəbhədə göstərdiyi şücaətə görə, Nuru Paşa 1916-cı ildə "Altun ləyaqət" ordeninə, Almaniyanın "Dəmir xaç" ordeninə, habelə, Avstriya-Macarıstan dövlətinin 3-cü dərəcəli fərqlənmə nişanına, Türkiyənin "Altun-İmtiyaz" medalına layiq görülüb, padşahın qərarı ilə 1918-ci ilin martında ona vaxtından əvvəl hərbi rütbə verilib. O, Trablis Qərb cəbhəsində italyan qoşunlarına qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlıq və sərkərdəlik qabiliyyətinə görə tarixi ədəbiyyatda "Trablis qəhrəmanı" kimi şöhrətləndirilir.

1918-ci ilin yazında Osmanlı Türkiyəsi Azərbaycanı və Dağıstanı xilas etmək üçün qərargah yaradanda, Qafqaz İslam Ordusunun komandanı vəzifəsinə, 29 yaşı olmasına baxmayaraq, böyük döyüş təcrübəsi olan, cəsur sərkərdə kimi tanınan Nuru Paşa təyin olundu. Ona padşah tərəfindən növbədənkənar general-mayor rütbəsi verildi. O, Türkiyənin müdafiə naziri Ənvər Paşanın qardaşı idi. Nuru Paşa bir hərbçi kimi uğurunu Azərbaycanda əldə etdi. Burada qazandığı qələbələrlə təkcə Osmanlı dövlətinin deyil, Azərbaycanın da hərbi tarixinə və ümumən Türkiyə-Azərbaycan tarixinə parlaq səhifələr yazdı. Nuru Paşa 1918-ci ilin mayında Azərbaycana gələrək, Qafqaz İslam Ordusunun yaradılmasında və təşkilatlanmasında, Azərbaycana türk qüvvələrinin vaxtında gətirilməsində, nəhayət, Azərbaycanın düşmənlərdən təmizlənməsində böyük rol oynamışdır. Nuru Paşanın qoşunları 1918-ci il iyunun 17-dən sentyabrın 14-





dək bir-birinin ardınca uğurlu döyüş əməliyyatları apararaq, Azərbaycan torpaqlarını bolşevik-daşnak qaniçənlərindən təmizlədi və həmin ilin 15 sentyabrında Bakını azad etdi.

Bakı şəhəri azad edildikdən sonra Qafqaz İslam Ordusu hissələri Qarabağa göndərilərək, Qarabağın erməni daşnaklarından təmizlənməsi əməliyyatına başlanıldı və uğurlu döyüşlərlə türk-azəri qoşunları Şuşaya daxil olaraq, şəhərdə Azərbaycan bayrağını qaldırdılar. Lakin Türkiyənin Birinci Dünya müharibəsində uduzması Nuru Paşanın bu işini yarımçıq qoydu. Öz doğma vətəninə qayıtması ilə Nuru paşa yeni sınaqlarla üzləşməli oldu. Hər şeydən əvvəl, Sovet Rusiyasının bolşevik rəhbərliyi Azərbaycanda bolşevik hakimiyyətinə qarşı qətiyyətli mübarizə aparan Nuru paşanın təqibini Türkiyə ərazisində də davam etdirdi. Qarabağda qarşısına qoyduğu məqsədə çata bilməməsi, Nuru paşanın mənəvi və fiziki gərginliyini daha da artırdı. Bunlar Nuru paşanın bütün durumunda da özünü göstərməyə başladı. Bir tərəfdən də, dolanışıq çətinliklərinin mövcudluğu Nuru paşanın həyatında ağrılı səhifələrdən birini açdı. Yeni şəraitdə Nuru paşanın ailə üzvləri də pərən-pərən düşmüşdü. Qardaşı Ənvər paşa ingilis təqiblərindən qaçaraq Rusiyaya sığınmış, anası Aişə İstanbulda tək qalmış, digər qardaşı Kamil və bacısı Mediha da yeni şəraitin çətinlikləri ilə üzbəüz qalmışdılar.

1920-ci il sentyabr ayının sonlarında Nuru paşa Türkiyənin azadlıq mübarizəsinə qoşuldu və Sarıqamış ətrafında döyülərə qatıldı. Nuru paşa bu döyüşə onunla birlikdə Türkiyə ərazisinə keçmiş Azərbaycan milli-süvari alayı ilə daxil oldu və bir daha Azərbaycana bağlılığını nümayiş etdirdi. Onun qatıldığı döyüş də uğurlu oldu və Azərbaycan süvari alayı 1920-ci il sentyabr ayının sonlarında Sarıqamışı ələ keçirdi. 1920-ci ilin oktyabrında Nuru paşa Azərbaycan süvari alayı ilə artıq Ərzurumda idi.

1921-ci ilin əvvəllərindən başlayaraq, Ənvər paşanın ailəsinə və yaxınlarına qarşı təzyiqlər bir qədər də artdı. Çünki 1921-ci il mart ayının 12-də Türkiyə Böyük Millət Məclisi Nuru paşanın və Ənvər paşanın Anadoluya gəlməsini qadağan edən qərar qəbul etdi. Ona görə Ənvər paşanın yaxınlarına qarşı da müəyyən sıxıntılar mövcud idi. Ənvər paşanın yaxınlarından bəziləri Avropaya köçmüşdülər.

Nuru Paşa İstanbulda Zeytunburnu fabrikini açdı və bu fabrikin fəaliyyəti 1946-cı ilə kimi davam etdi. Zeytunburnu fabriki hərbi xarakterli fabrik idi və burada top, minaatan, təyyarə mərmiləri, tapançalar və digər silah və sursat istehsal olunurdu. Eyni zamanda, bu fabrikdə mərmilərin, hərbi silahların və təchizatın təmiri işləri də aparılırdı. Nuru paşanın fabriki, hətta II Dünya müharibəsi illərində Türkiyədə əsas tapança istehsal edən fabrik idi. Fabrik təkçə tapança üçün yox, digər silahlar üçün də Türkiyə Müdafiə Nazirliyindən böyük sifarişlər alırdı. Nuru paşa Sütlücədə yeni bir fabriki təsis etdikdən sonra Zeytunburnu fabrikinin fəaliyyəti tədricən həmin fabrikə keçirildi. Sütlücə fabrikinin təsis edilməsi isə 1938-ci ilə təsadüf edir. Bu fabrik başqa bir şəxsə mənsub idi və göstərilən ildə Nuru paşaya satıldı. Nuru paşa bu fabriki ciddi şəkildə yenidən təchiz edərək, onu silah və sursat istehsal edən bir fabrikə çevirdi. Burada istehsal olunan silahlar Türkiyənin ehtiyacına istifadə edildiyi kimi, həm də xaricə ixrac olunurdu. Bu da Nuru paşanın istehsal etdiyi silahların yüksək keyfiyyətdə olmasından xəbər verir. Nuru paşa, hətta öz məhsulları ilə müxtəlif sərgilərdə də iştirak edirdi. O, istehsal etdiyi məhsulların satışının təşkil edilməsi üçün bir sıra xarici ölkələrdə - Vyana, Berlin, Paris, Almaniyada, Fransada və Suriyada olmuşdu.

1949-cu il mart ayının 2-də Nuru paşa sahibi olduğu Sütlücə hərbi fabrikində baş vermiş partlayış nəticəsində həlak olub.

O dövrdə xalq təhsili naziri olan Nəsib bəy Yusifbəyov çıxışlarının birində Nuru Paşanın atası Hacı Əhməd Paşaya demişdi: "Zati-aliləri, sizin şanlı oğullarınız Ənvər Paşa və Nuru Paşanın adları, nəinki təkcə Azərbaycanın, eyni zamanda, bütün türk xalqlarının yaddaşında həmişəlik qalacaqdır".

Həqiqətən də, hər bir türk oğlunun, azərbaycanlının yaddaşında Nuru paşanın cəsarəti, şüşaəti və qəhrəmanlığı iz salıb. Hər kəs onun sahib olduğu yüksək keyfiyyətləri cəsur bir sərkərdə kimi yad edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Rusiya erməniyə dayı deyən separatçılardan imtina edir

## Fəxrəddin Abbasovun həbs olunması separatçıların sonunun çatıdığını göstərir

***Azərbaycanda aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində ölkəmiz nəinki regionda, ümumiyyətlə, dünyada ən inkişaf etmiş dövlətlərdəndir. Bunu nüfuzlu beynəlxalq maliyyə institutları da yaydıqları hesabatları ilə təsdiqləyirlər. Hazırda, Azərbaycan investisiyaların yönəldilməsində ən cəlbedici ölkə olmaqla yanaşı, həm də özü güclü sərmayədar ölkəyə çevrilib. Son 15 ildə respublikamızın beynəlxalq iqtisadi-siyasi əlaqələri daha da güclənib, qarşılıqlı səmərəli əməkdaşlıq, dünya iqtisadiyyatına öz milli mənafeyini qorumaqla inteqrasiya olunması ölkəmizə böyük siyasi və iqtisadi dividendlər gətirib.***



Təbii ki, bu cür iqtisadi-siyasi uğurlar Azərbaycan vətəndaşlarının daha təhlükəsiz və sosial cəhətdən daha geniş şəkildə təmin olunması deməkdir. Amma hər kəsə bəlli olan, fakt da mövcuddur ki, istər xaricdə, istərsə də daxildə Azərbaycanın əldə etdiyi nailiyyətlərinə kölgə salmağa cəhdlər göstərənlər var. Bunların sırasında özlərini və yaxınlarını xarici xüsusi xidmət orqanlarına yem edən mühacirlərin adını xüsusi ilə misal göstərmək olar. "Sapı özümüzdən olan baltalar" siyahısında talış adından çıxış edən, ancaq talışlara heç bir aidiyyatı olamayan şəxslər də var. Onlar, sadəcə, Ermənistan xüsusi xidmət orqanlarının girovuna çevrilərək, yaramaz və şərəfsiz bir yol tutublar.

### Satqına bəraət ola bilməz

Vaxtaşırı Ələkram Hümbətov (Ələkram Hümmətov), Adil Nəsirov, Fəxrəddin Abbaszadə, Ataxan Əbilov, İsmayıl Şabanov kimi xəyanət yolu tutanlar Yeravana səfər edərək, orada Azərbaycana qarşı separatçı çıxışlar edirlər. Artıq sübuta yetirilir ki, özlərini talış kimi qələmə verib, separatçı mövqe sərgiləyənlərin bəzisi, əslində talış deyillər. Buna misal kimi, Ermənistana qaçan Şahin Mirzəyevi göstərmək olar. Bu şəxs Lerikdə doğulsa da və "talışam" desə də, etnik olaraq talış deyil. Lakin o və adları burada çəkilən digər xainlər Ermənistan kəşfiyyatının qucağında oturublar, Azərbaycana, onun köklü maraqlarına qarşı düşmənlərin apardığı savaşa alətdirlər, ölkələrinə, deməli, həm də məğrur talış xalqına qarşı çıxıblar. Təbii ki, separatizmin və xəyanətin ömrü uzun ola bilməz. Gec-tez, onların hamısı əməllərinin cavabını məhkəmə qarşısına çıxmaqla verməli olacaqlar. Daha doğrusu, artıq Azərbaycan tərəfindən Cinayət Məcəlləsinin 281.2, 283.1 maddəsi ilə dövlətlərarası axtarışa verilən separatçı Fəxrəddin Abbasov (Abaszadə) Rusiyada həbs edilib. Bu barədə "Regnum" saytına istinadən xəbər verilir ki, Moskva vilayətinin Lüberets Şəhər Məhkəməsi F.Abbasovun Azərbaycana təhvil verilməsini təmin etmək üçün onun barəsində bir ay müddətinə həbs qətimkan tədbiri seçib.

Qeyd edək ki, F.Abbasov Azərbaycanın müstəqilliyinin, milli dövlətçiliyimizin düşməni olan Əlikram Hümbətovun yaxın adamı olub. 1993-cü ildə Azərbaycanda separatçılıq fəaliyyəti ilə məşğul olan F.Abbasov 1994-cü ildə Rusiyaya qaçıb və orada yaşayıb. F.Abbasov dəfələrlə qanunsuz olaraq Ermənistana səfər edib və öz əqidədaşları ilə müxtəlif tədbirlər təşkil edərək, qondarma separatçı ideologiyanı təbliğ edib, Azərbaycan dövlətinə qarşı şər və böhtanlar səsləndirib.

F.Abbasova qarşı cinayət işi 12 iyul 2018-ci il tarixində qaldırılıb. Bakı şəhəri Səbail rayon məhkəməsinin 14 iyul tarixli qərarı ilə onun cinayət məsuliyyətinə cəlb olunması barədə hökm çıxarılıb və dövlətlərarası axtarışa verilib. Həbs olunması, onu deməyə imkan verir ki, F.Abbasov yaxın vaxtlarda Azərbaycana ekstradisiya olunaraq, məhkəmə qarşısına çıxarılacaq.

İrəli sürülən tələblər və çağırışlara əsaslanaraq, demək olar ki, separatçıların təbliğat maşını rolunda çıxış edən "OTV" kanalı da bağlanacaq. Məlumatlara görə, artıq "OTV"-nin rəhbəri Zabil Məhərrəmov və Rusiyada Azərbaycan əleyhinə separatçılıqla məşğul olan İsmayıl Şabanov ətrafında istintaq orqanları nəzarət hərəkətləri aparırlar. Yəqin ki, yaxın vaxtlarda bu şəxslər də F.Abbasovun aqibətini yaşamalı olacaqlar.

### Separatçıların meydanı daralır

Azərbaycana qarşı Rusiyada qatı separatçı meyilli ilə seçilən İ.Şabanov bir qədər əvvəl düzənlənən qondarma Osetiyanın müstəqilliyinin ildönümü ilə bağlı keçirilən tədbirlərdə "Talış Respublikası"nın nümayəndəsi kimi iştirak edib. Bu satqın Ə.Hümbətovun maliyyə cəhətdən geniş şəkildə təmin olunması üçün erməni lobbisinə xahişlərlə müraciətlər də edib. Hətta 2009-cu ildə Ə.Hümbətovun Moskva şəhərinə səfərini təşkil edib. Baş separatçı Moskvada talış təşkilatlarının nümayəndələri ilə görüş keçirib və burada talış təşkilatlarının koordinasiya şurasının yaradılmasını və qurumun adından sərt bəyanatların qəbul olunmasını təklif edib. Müəyyən maraqlı dairələrin və erməni xüsusi xidmət orqanlarının dəstəyi və bilavasitə, köməyi ilə Ə.Hümbətovun irəli sürdüyü ideya reallaşmışdır. Təşkilatın yaradılması ilə Mosvada məskunlaşan talışların ciddi narazılığına və etirazlarına səbəb olan bəyanatlar səsləndirilmişdir. İddialar irəli sürülmüşdür ki, "Azərbaycanda insan hüquqları pozulur", "Azərbaycanda talışlar məcburi assimilyasiyaya məruz qalırlar", "Azərbaycanda talışlara qarşı diskriminasiya siyasəti tətbiq olunur" və bu kimi digər şər və böhtan xarakterli fikirlər. Rusiyadakı kəskin etirazlarından qorxuya düşən Ə.Hümbətov İ.Şabanovun dəstəyi ilə oğlu Turalla birlikdə Ermənistana yola salınıb. Ə.Hümbətov tarixi Azərbaycan torpağı - Qədim İrəvanda Ermənistan Dövlət Universitetinin iranşünaslıq kafedrasında "talışşünaslıq" üzrə magistr proqramının açılış mərasimində çıxış etmiş və talış mədəniyyətinin Azərbaycanda təqib edilməsinə dair fikirlər səsləndirmişdir. Bununla yanaşı, o, Xankəndidə qondarma qurumun "parlament sədri" Aşot Qulyanla görüş keçirmişdir. Görüşdə baş separatçı satqın və xəyanətkar xislətini tam şəkildə ortaya qoymuş və açıq şəkildə bildirmişdir ki, Ermənistan sədri olduğu "Talış Milli Hərəkatı"na dəstəyini davam etdirəcəyi halda, istənilən ideya və təklifi dəyərləndirməyə çalışacaq.

AXCP sədri Əli Kərimlinin dostu (F.Abbasovun 50 illik yubuleyində Ə.Kərimli ona təbrik məktubu ünvanlamış və ideya-siyasi mübarizəsində uğurlar arzulamışdır-İ.Ə.) F.Abbasovun separatçıların meydan suladığı Rusiyada həbs olunması, artıq separatçıların sonunun çatdığını və yaxın günlərdə separatçıların liderlərindən olan Hilal Nəsirov, İsmayıl Şabanov, Bəxtiyar Ağazadə, Rabil Abdinov, Kahin Mirəlizadə (Əbilov) və digərləri də həbs olunaraq, Azərbaycana gətiriləcəklər. Bununla da, layiq olduqları cəzalarını almış olacaqlar. Tarixən də belə olub, bütün müqəddəs dəyərlərini, sadəcə, pula satan, öz millətinə, xalqına və vətəninə xəyanət edən insanların aqibəti acınacaqlı sonluqla bitib.

**İ.ƏLİYEV**

## Cari ildə Azərbaycandan 4,6 milyard kubmetr təbii qaz göndərilib



Bu ilin yanvar-avqust aylarında Azərbaycandan 4 milyard 631 milyon 59 min kubmetr təbii qaz ixrac olunub. Dövlət Gömrük Komitəsindən (DGK) AZƏRTAC-a verilən məlumata görə, hesabat dövründə ixrac olunan təbii qazın dəyəri isə 877 milyon 666 min ABŞ dolları təşkil edib. Qeyd edək ki, keçən ilin ilk səkkiz ayında ölkədən 5 milyard 182 milyon 571 min kubmetr təbii qaz ixrac edilib, həmin ixracın dəyəri 926 milyon 776 min dollar olub.

## Tramp Paşinyanla görüşdən niyə imtina etdi?



Sentyabrın sonunda Ermənistanın baş naziri Nikol Paşinyan Nyu-Yorkda BMT Baş Assambleyasının 73-cü sessiyasının açılışında iştirak etmək üçün ABŞ-a səfər edəcək. ABŞ prezidenti Donald Trampın həmin tədbirə qatılacağı gözlənilir. SİA-nın verdiyi xəbərə görə, erməni KİV-ləri Qərb mətbuatına istinadən diqqət çəkən məlumat yayıblar. Bildirilib ki, Tramp sessiya çərçivəsində Paşinyanla görüşdən imtina edib. Qeyd olunub ki, qərbpərəst Paşinyanın Rusiyaya mütəmadi səfərləri və bəzi addımları Qərbdə anlaşılmazlıq yaradıb. Belə ki, ABŞ ona əvvəlcədən xəbər edilmədən Rusiyanın təklifi ilə Ermənistanın Suriyaya "humanitar qoşun" göndərmək qərarının məğzini anlaya bilmir.

## Sayımız 10 milyona yaxınlaşır



Ölkə üzrə əhalinin sayı ilin əvvəlindən 45 min 141 nəfər və ya 0,5 faiz artaraq avqust ayının 1-nə 9 milyon 943 min 226 nəfərə çatıb. Bir kvadratkilometrə düşən əhalinin sayı 115 nəfər olub. Dövlət Statistika Komitəsindən SİA-ya bildiriblər ki, əhalinin ümumi sayının 52,9 faizi şəhər yerlərində, 47,1 faizi kənd yerlərində məskunlaşıb, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1005 qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-iyul ayları ərzində ölkədə 78 min 673, yaxud hər gün orta hesabla 371 doğulmuş körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 13,8 təşkil edib. Doğulan körpələrin 53 faizi oğlan, 47 faizi isə qız uşaqlarıdır. Doğulanlardan 1458-i əkiz, 57-si üçəmdir. Hazırda ölkədə uşaq doğmaq qabiliyyətinə malik hər bir qadına bütün ömrü boyu 1,9 uşaq düşərək əhalinin təkrar istehsalı təmin olunur. Cari ilin yanvar-iyul ayları ərzində ölkədə 34 min 812 ölüm halı qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 6,1 təşkil edib. İlin 7 ayında qeydiyyat şöbələri tərəfindən 33 min 9 nikah və 8 min 538 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,8, boşanmaların sayı isə 1,5 olub. Yanvar-iyul aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 2 min 109 nəfər Azərbaycana gələn, 829 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq miqrasiyanın müsbət saldosu 1280 nəfər təşkil edib.

## Məşhur portal Azərbaycan plovundan yazdı

Dünyanın məşhur "tasty.com" kulinariya internet portalının latviyalı redaktoru Yolanta Roze dünya plovları barədə məqalə hazırlayıb. AZƏRTAC xəbər verir ki, 9 müxtəlif plovun yer aldığı məqalədə yeganə düzgün resept kimi Azərbaycan plovu göstərilib.

"Əgər bir qazan ləzzətli plov bişirsəniz azı iki gün dincələ bilərsiz. Çünki ailəniz bu dadlı yeməyi yeməkdən doymayacaq. Hər kəsin ideal plov anlayışı var: kimsə yalnız özbək plovunu tanıyır, digəri üçün yeganə düzgün resept Azərbaycan plovudur",- deyə məqalədə vurğulanır. Məqalədə ölkəmizin ən məşhur "turşu-qovurma plov"un hazırlana qaydası göstərilib.



# "Siyasi məhbus" alverçilərinin satqınlığı

## Xədicə İsmayıl Əli Kərimli və Cəmil Həsənli haqqında: "Ambisiyaları çox, ağılları yoxdur"

Dağıdıcı müxalifət düşərgəsi nə zaman mövzu sarıdan qıtlıq yaşayırsa, saman çöpündən yapışan kimi, dərhal "siyasi məhbus" məsələsinə üz tutur. Daha doğrusu, "siyasi məhbus" mövzusu onların gündəlik həyatlarında nəfəslik rolunu oynamağa başlayıb. Yenə də dağıdıcı düşərgədə "siyasi məhbus" məsələsi ətrafında didişmələr başlayıb. "Dartma, yaxam cırıldı" deyən "siyasi məhbus" "ideyası" üzərində baş sındıranlar bir-birlərini qurşaqdan aşağı , "nə yemisən, türşulu aş" deyib zərbələr vurmaqdan belə çəkinmirlər. Baş verən bu qovğalara diqqət yetirsək, görərik ki, söhbət "siyasi məhbus" alverçilərini onların hüquqlarını müdafiə etmək istəyindən getmir və bu, onları zərrə qədər də maraqlandırmır. Bu qovğada yenə də Qərbdəki donor təşkilatlarından külli miqdarda qrant almaq və varlanmaq ehtirası açıq-aydın özünü göstərir.



### "Siyasi məhbus" alverçilərinin qoç döyüşü

Xədicə İsmayıl-Leyla Yunus və Oqtay Gülalıyev tərəfindən hazırlandığı iddia olunan yeni "siyasi məhbus" siyahısı. 128 nəfər. AXCP və "Milli Şura" L.Yunusun siyahısına açıq dəstək verərək X.İsmayılın dəstəsinə arxa çevirdi. Dünənə kimi, sevgili olan, "getmə gözümdən-gedərəm özümdən" deyən AXCP sədri Əli Kərimli və "Milli Şura"nın kağız üzərində sədri Cəmil Həsənli Xədicəgilin ünvanına demədiyi təhqirlər qalmadı ki, deməsin.

### AXCP sədrinin sağ qulağını sol əli ilə qaşımaq həvəsi qursağında qaldı

Bir məqama toxunaq ki, bu işlərin həllində O. Gülalıyevi irəli vermək istəyən Ə.Kərimli "siyasi məhbus" məsələsində ondan faydalanmaq istədi. Amma AXCP sədrinin sağ qulağını sol əli ilə qaşımaq həvəsi qursağında qaldı. Çünki qarşısındakılar onun öz mətbəxində dolaşan adamlardır. Mütəmadi olaraq, Qərb institutlarından "şərikli çörək" alıb yedikləri də məlumdur. X.İsmayılın "facebook" səhifəsində yazdığı "Siyasətçilər medianın işinə qarışdılar, kor qoydular mətbuatı. İndi də hüquq müdafiəçilərinin işinə qarışıb, onları iflic edirlər" kimi qınağından ən çox nəticə çıxarmalı olan adam AXCP sədridir. Xədicənin təbirincə, Ə.Kərimli və C.Həsənli araqarışdıranlardır. O, növbəti şərhində fikrini bu sözlərlə ifadə edib: "Ambisiyaları var e, ağılları yoxdur. Sınıq barmağa tibbi yardım göstərməkləri yox, qoyasan elə ara qarışdırsınlar. Əqidəsiz, mənəviyyatsız, vətəni və dövləti satan bu "siyasi məhbus" alverçilərindən bunu gözləmək təəccüb də doğurmur. Pul iyi gələndə, dağıdıcı müxalifət düşərgəsinin ştatlı üzvlərinin iştahası daha da artır. Elə son günlər olduğu kimi. Bu satqınların düşmənçiliyi hələ çox davam edəcək. Ancaq qranta görə Vətənini və dövlətini satanlar cəzalarını çəkməklə yanaşı, həm də yerləri cəhənnəmdir."

Bu yerdə dahilərin satqınlarla bağlı dediklərini xatırlatmaq istərdim. Belə ki, Ömər Xəyyama görə, ''İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar''. Dante ''İlahi komediya'' əsərində satqınları cəhənnəmin ən sonuncu - 9-cu qatında yerləşdirib.

Mən belə düşünürəm ki, satqınlığın qaynaqları - uşaqlıq dövründə, ailədə gizlənir. Normal ailədə - satqının böyüməsi mümkün deyil. Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, X.İsmayıl, L.Yunus... kimilərin satqınlığı bunu deməyə əsas verir ki, bu kəslər normal ailədə böyüməyiblər.

**Rəfiqə HÜSEYNOVA**

# "Müxalifətdaxili ziddiyyətlər və çəkişmələr həmişə olub və bundan sonra da olacaq"

***- Əli bəy, son vaxtlar müxalifət düşərgəsində ittihamların seriyası və qarşıdurmaların miqyası bir qədər genişlənib. Sizcə, bunun səbəbi nədir?***

- Müxalifətdaxili ziddiyyətlər və çəkişmələr həmişə olub və bundan sonra da olacaq. Amma çox istərdim ki, bu, rəğbət mühitində və qarşılıqlı hörmət əsasında baş versin. Təəssüf ki, müxalifətin özündə də qeyri-sivil və etik normalardan kənar fəaliyyət göstərənlər var. Eyni zamanda, müxalifət daxilində bəzi siyasilər və partiyalar bu düşərgədə olanlara tərəfdaş, müttəfiq kimi deyil, düşmən, yaxud da qısqanclıqla yanaşırlar. Ona görə də, sağlam rəqabətə deyil, qəbuledilməz üsullara əl atırlar. Bir-birlərini sıradan çıxarmağa çalışırlar və illərdir ki, eyni tendensiya davam edir.



*Müsahibimiz AMİP funksioneri Əli Orucovdur*

***- İlqar Məmmədovun həbsdən azad edilməsindən sonra sanki müxalifətin öndə olan iddialı partiyaları ruhdan düşüblər. Bu, belə də davam edəcəkmi?***

- Cəmiyyətin özündə bir süstlük var. İnsanlar siyasətə və siyasi proseslərə fəal qoşulmurlar. Müxalifət partiyalarının rəhbərliyində təmsil olunanlar sıravi üzvlərə problemlər yaradırlar. Onların kollegial orqanlarda təmsil olunmalarına imkan vermirlər. İnzibati-idarəçilik müxalifətin sıravi üzvlərinin siyasi təşkilatlarda sərbəst birləşmələrinə və mövqelərini bildirmələrinə imkan vermir. Ona görə də, siyasi liderlərin fərdi keyfiyyətləri heç nəyi dəyişə bilmir. Çünki həmin liderlərin özlərinin fəaliyyətləri şəffaf deyil.

***- Düşünmək olarmı ki, müxalifətin aparıcı simalarının bir-birilərindən üz döndərmələri və yeri gələndə, sosial şəbəkələrdə bir-birilərni gözdən salmağa çalışmaqları hansısa maraqları təmin etməyə hesablanıb?***

- Sosial şəbəkələrdən düzgün yararlanmaq və onun imkanlarından faydalanmaq lazımdır. Nə yazıqlar olsun ki, bəzən bu imkanlardan etikadan kənar istifadəyə də yol verilir. Təhqirlərə, hətta söyüşlərə keçilir ki, bu da, qətiyyən olmaz. Belələrinin qarşısını almaq isə elə də asan deyil. Məncə, bunu bilərəkdən edirlər ki, fəal təbəqə internetin resurslarından, xüsusən də, sosial şəbəkələrdən istifadə etməsin, iyrənsin, bezsin və s. Amma anlamaq lazımdır ki, sosial şəbəkələrdən milyonlarla insan istifadə edir və virtual olaraq, həmin qrupları, insanları izləyir və qiymətlərini verir. Hesab edirəm ki, müxalifətin sıravi üzvləri, gec-tez rəhbərlərinə qarşı öz qəti mövqelərini nümayiş etdirəcəklər.

**GÜLYANƏ**

# "Paşinyanın dövlətçilik anlayışı hələ də formalaşmayıb"

"Ermənistanın baş naziri Nikol Paşinyanın dövlətçilik anlayışı hələ də formalaşmayıb". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib. Politoloqun sözlərinə görə, Dağlıq Qarabağın "müstəqilliyi" qeyd olunanda Dağlıq Qarabağda olmadı, amma ondan bir neçə gün öncə oğlunun andiçmə mərasimində ailəsi ilə birlikdə iştirak etdi: "Təkcə bu fakt özü göstərir ki, N.Paşinyan ümumiyyətlə Dağlıq Qarabağ məsələsinin nə olduğunu başına yeridə bilməyib. Ermənistanın daxili problemlərindən, özünün bacarıqsızlığından diqqəti ayırmaq üçün Dağlıq Qarabağ məsələsində məntiqsiz, savadsız, ziddiyyətli fikirlər səsləndirir. Əgər doğrudan da Ermənistanın adından danışıqlarda iştirak edirsə və Rusiya ilə münasibətləri səmimi şəkildə normallaşdırmaq istəyirsə, o zaman çox asanlıqla Mehri dəmir yolunu açmaq məsələsini aktuallaşdırmalıdır. Mehri dəmir yolunun keçdiyi ərazilərin Dağlıq Qarabağa heç bir aidiyyəti yoxdur. Sofistika ilə məşğul olması isə onu çətin vəziyyətə qoyur.



Amma onun Moskvada olarkən Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi görməsi barədə verdiyi bəyanat birbaşa AİB-ə qarşı yönəlib. O Qərbin maraqlarına uyğun KTMT-i ləkələdi. İndi də eyni bu motivasiya üzrə AİB-ə qeyri-ciddi qurum donu geyindirmək istəyir. RF KTMT məsələsində N.Paşinyanı pis vəziyyətə saldı. Hətta rusiyalı mütəxəssislər ABŞ-ın Ermənistandakı məxfi laboratoriyasına girdi. N.Paşinyanın düşüncəsinə görə o Qərbi inandıra biləcək ki, KTMT-yə cinayətkarın başçılıq etdiyini sübut etmək Qərb üçün Rusiyanın onun biolaboratoriyalarına girməkdən daha faydalıdır. İnamı möhkəmləndirən faktor kimi AİB-ə zərbə endirdi. Ermənistan AİB-ə üzv olarkən Dağlıq Qarabağı öz tərkib hissəsi hesab etməyəcəyi ilə bağlı rəsmi öhdəlik götürüb. İndi Ermənistanın birinci şəxsi bu öhdəliyi danır. Rusiyanın susması maraqlıdır. Ola bilər Ermənistandan daha əlavə nələrsə bunun əvəzində qoparacaqdır.

Amma Rusiyanın susması hələ hər şey demək deyil. Qarşıda minimum 2 variant var:

I. Rəsmi Bakı rəsmən AİB rəhbərliyinə müraciət edə bilər.

II. AİB təkcə Rusiyadan ibarət deyil. Qazaxıstan və Belarus da AİB üzvləridir.

Maraqlı vəziyyət yaranıb. Rusiya hansı qaydada MDB məkanında dövlətlərin milli maraqlarını, suverenliyini inkar edirsə, eynilə o qaydada ABŞ və iri dövlətlər Rusiyaya qarşı davranırlar. Rusiya milli maraqlarının danılmasını istəmirsə, MDB məkanındakı dövlətlərin milli maraqlarını danmasın".

# Ermənistandakı siyasi vəziyyət AŞPA-da müzakirə olunacaq

***Ermənistandakı siyasi vəziyyət AŞPA-nın Monitorinq Komitəsində müzakirə olunacaq. SİA-nın xəbərinə görə, bu barədə Ermənistanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, parlamentin vitse-spikeri Arpin Ovanasyan öz "facebook" səhifəsində qeyd edib. "Dünən AŞPA-nın Siyasi və Demokratiya Komitəsinin iclasında Ermənistanın daxili siyasi vəziyyəti və son hadisələr müzakirə olundu.***

Burada əsas məsələlər söz azadlığına təzyiq, nifrətin yayılması, Ermənistanın ikinci prezidentinə və çoxsaylı keçmiş rəsmilərə və onların ailə üzvlərinə qarşı cinayət işi, mümkün konstitusiya dəyişiklikləri, Baş nazirin səlahiyyətlərinin təmin edilməsi, qanunvericilik və məhkəmə orqanlarına təzyiqlə bağlı idi. Mən faktlar, videolar, nəşrlər təqdim etdim. İclasda həmçinin Milli Təhlükəsizlik Xidmətinin direktoru ilə Xüsusi İstintaq Təşkilatının rəhbəri arasında olan telefon söhbəti ilə bağlı müzakirə də aparıldı. Müzakirələr nəticəsində Ermənistanda qanunvericilik və məhkəmə orqanlarının müstəqilliyi və siyasi zülm ilə əlaqədar olaraq qanunun aliliyini təmin etmək məqsədi ilə Ermənistanda monitorinq aparmaq təklifi ilə Monitorinq Komitəsinə məktub göndərilməsi qərara alındı",- deyə Ovanasyan qeyd edib.

# Passiv müxalifətin “aktiv” payız iddiaları

## *İlqar Məmmədovun “müxalifəti yeniləşdirəcəm” deməsi dağıdıcı müxalifəti qəflət yuxusundan ayıltdı*



***Son günlər “REAL” partiyasının sədri İlqar Məmmədov olayı, müxalifət “lider”lərinin yay istirahətini burunlarından töküb. Belə ki, “REAL” partiyasının sədri keçirdiyi mətbuat konfransında müxalifətin ünvanına səsləndirdiyi təhqiramiz fikirlər düşərgə “lider”lərinin kürkünə birə saldı, özü də necə... Ancaq oturub fikirləşəndə ki, 25 ilə yaxındır ki, döşünüzə döyürsünüz ki, güclü müxalifətsiniz, budurmu sizin gücünüz? Siçan pişikdən qorxduğundan da qorxaq və gücsüzsünüz. Əslində, satqın və cinayətkar həmişə qorxaq olur. Siz dağıdıcı müxalifət “lider”ləri İ.Məmmədovun iddiası faktoru qarşısında aciz olduğunuz aydın görünür. Ona görə də, siz dağıdıcı müxalifət üçün İ.Məmmədovun həbsdə olması, daha əlverişli idi. Çünki belə olduğu halda, onların sosial bazasına göz dikəcək bir rəqiblərini sıradan çıxarmış olursunuz.***

### Ziqmund Freyd bu yerdə deyib ki...

Burada Ziqmund Freydin bir müddəası yada düşür. Təxminən belədir ki, bir məsələdə uzun müddət uğursuzluğa düçar olmuş, bütün cəhdlərinə baxmayaraq, heç nəyə nail ola bilməmiş adamda nevrotiklik yaranır və ona elə gəlir ki, artıq həmin məsələdə məqsədinə nail olub. Buna görə də İ.Məmmədov kimi ünsürlər nevrotikcəsinə qeyri-real açıqlamalar verirlər və uğursuzluqların gətirdiyi psixoloji travmadan özlərini “uğurlu” saymağa başlayırlar. İndi də, İ.Məmmədov “travması” alan müxalifət bu “travmadan” xilas olmaq yolu axtarışına çıxan müxalifət ağır və böhtanlı vəziyyətlə üzləşib.

### Tural Abbaslı: “Siyasi aktivlik məsələsində Azərbaycan iqtidarının mövqeyi həlledici şərtdir”

“AĞ Partiya”nın sədri Tural Abbaslı Azərbaycan xalqının dəstəyini vacib sayıb: “Bu payızda da fəaliyyətimizin əsas istiqaməti xalqımız olacaq. Bizim üçün hansısa beynəlxalq təşkilatların, xarici siyasi missiyaların, fondların və s. deyil, Azərbaycan xalqının dəstəyi və etimadı vacibdir. Odur ki, partiya olaraq, əsasən, daxilə hesablanmış siyasət yürüdürük.” T.Abbaslının sözlərinə görə, “AĞ Partiya” olaraq, bizim də təsisçilərindən olduğumuz Qarabağ Komitəsi sentyabr ayının 29-da “Məhsul” stadionunda “Qarabağa azadlıq!” şüarı adı altında mitinq təyin edib: “Bu mitinqin kütləviliyi, izdihamı və möhtəşəmliyi istər iqtidarımıza, istər münaqişə tərəfinə, istərsə də beynəlxalq aləmə lazımi və faydalı mesajlar verə bilər. Odur ki, biz də burada təmsil olunan partiyalarla birlikdə, çalışacağıq ki, bu mitinq möhtəşəm alınsın. Təbii ki, bu məsələdə də Azərbaycan iqtidarının mövqeyi həlledici olacaq”.

T.Abbaslı, onu da bildirib ki, mitinqin keçirilməsi BŞİH-lə razılaşdırılmasa, istədiyimiz aksiyanın alınacağına inanmıram: “İlqar Məmmədovun mitinqlərin hakimiyyətin əlində oynadığı ilə bağlı fikirlərinə gəlincə isə, deyə bilərəm ki, bu mitinq o mitinqlərdən deyil. Həmçinin, hətta müxalifət olaraq, bizim keçirəcəyimiz “Qarabağa azadlıq!” mitinqi danışıqlar masası arxasında və ya beynəlxalq səviyyədə iqtidarın əlini Qarabağ məsələsində gücləndirəcəksə, nə xoş bizə.” T.Abbaslı xatırlatma edərək bildirib ki, tarixçi Cəmil Həsənli, “AĞ Partiya”nın seçkiyə qatıldığı üçün, qınaq hədəfinə çevirməyə uğursuz cəhd etmişdi: “Bəhanəsi də, o idi ki, guya “AĞ Partiya”nın öz namizədi ilə seçkiyə getməsi seçkilərə legitimlik qazandırmaq cəhdi idi. Halbuki həmin ərəfədə onun təmsilçisi olduğu “Milli Şura”nın təşkil etdiyi mitinqin seçkiləri daha çox legitimləşdirdiyi siyasətlə yeni məşğul olan həvəskar gəncə belə aydın idi. Necə ki, bunu zaman bir daha sübut etdi. Hər mitinqə ayrıca qiymət vermək lazımdır. Sabah elə bir siyasi situasiya yarana bilər ki, hətta kiçik bir mitinq belə vəziyyəti tam dəyişər”.

AXCP, Müsavat, AMİP və digər partiya liderləri, yenə də öz çirkin niyyətlərində qalaraq, biabırçı uğursuz yollarını davam etdirməyi planlaşdırırlar. VİP sədri Əli Əliyev və AMİP funksioneri Əli Orucov, müxalifətini çətin və məhdud şərtlər daxilində nəyi bacarırsa, həyata keçirməyə çalışacaqlarını vurğulayırlar. Bu yerdə atalar gözəl deyib: utanmasan, oynamağa nə var ki... Bu, o müxalifət deyilmi ki, yarandığı gündən etibarən mövcud iqtidarla baş-başa gəlməyi bacarmayıb. Ona rəqib və alternativ ola bilməyib. Yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət mövzusunda. Bu günə qədər müxalifət adına sıralanan bütün biabırçı və rüsvayçı məğlubiyyətlərin də səbəbi, məhz budur. Durum dünən də dəyişməyib, bu gün də dəyişməyib, heç payızda da dəyişməyəcək. Hətta müxalifətin düşərgəsində elə bir başıpozuqluq yaranıb ki, sabah onlar daha hansısa əndrəbadi qurum yaradıb, orada toplaşsalar, artıq təəccüb etməyə dəyməz.

Beləliklə, deyə bilərik ki, məğlubiyyət müxalifətin alın yazısıdır. Onların qabiliyyətinə, istəyinə, səmimiyyətinə və gücünə tam adekvat olan bir yekundur. Bu 25 ilə yaxın zaman kəsiyində, xalq dağıdıcı xislətli müxalifəti yaxşı tanıyıb. Bu gün dağıdıcı müxalifət xalqın onlardan üz döndərdiyini görmək istəmədiyini hələ də başa düşə bilmir və siyasi meydanı da tərk etmək istəmirlərsə, artıq onlar, həqiqətən də, travma almış xəstələrdir.

**Rəfiqə HÜSEYNOVA**

---



# *Müxalifət düşərgəsində mərkəzdənqaçma oyunu*

**RƏFİQƏ**

***Necə vaxtdır ki, bir sual məni düşündürür: şəxsi ambisiyalar, gerçəklik və zaman çərçivəsində seçim etməkdə acizlik edənlər niyə müxalifət düşərgəsində təmsil olunur? Elə bu yazıda da toxunacağım məqamlar da verdiyim sualı açıqlamağımla bağlı olacaq. Müxalifətin keçdiyi bu 25 ilə yaxın dövrə diqqət yetirdikdə, bir daha gördüm ki, bu illər ərzində maraqlar və iddialar üzərində bərqərar olmaq həvəsində olub və bu iddialar da onları hər saniyə sonluğa doğru yaxınlaşdırıb.***

Beləliklə, gerçək dəyərlərdən tamamilə uzaq düşmüş, loyal prinsiplərlə idarə olunan müxalifət üçün yekun nəticə göz qabağındadır. Bütün olub-keçənləri bir kənara atıb birləşərək, bir mərkəz olacaqlarını bəyan edən müxalifət yetkililərinin səsləndirmiş olduqları qeyri-ciddi bəyanatlar, birmənalı şəkildə, mərkəzdənqaçma oyununa xidmət edir. Bu oyunun oyunçuları dağıdıcı xislətli müxaliflər arasında isə, yarı gizli-yarı aşkar mübarizə gedir. Bu oyunlara transfer olunmuşlar da, hiddət və mərezin bir addımlığındadırlar. Əsəblər tarıma çəkilib, gözlər bir neçə ünvana dikəlib, icraçılar isə öz havalarındadır.

### Düşərgədə kar-kor olmaq tendensiyaları

Bütün deyilənlərdən bəlli oldu ki, həqiqətən də, şəxsi ambisiyalar, gerçəklik və zaman çərçivəsində seçim etməkdə acizlik göstərənlərin hamısı müxalifət düşərgəsində cəm olublar. Ona görə də, müxalifət düşərgəsində yuxarılar aşağıları, aşağılar da yuxarıları bəyənmədiyindən eşitmir. Bir-birinə qarşı kar-kor olmaq tendensiyalarından, əl tutmamaq, salam verməmək kimi amillərdən, “sözünü özün deyib, özün eşidirsən” formasındakı “mən səni eşitmək istəmirəm”, “sən danışsan da, burada “beziləri kənara işləyir” formasında oxşar replikalar hələ çox davam edəcək. Məntiq və düşüncə, qavramaq, söz eşidib, kəlmə kəsmək insan üçün normal bir şeydir. Ancaq bu gün müxalifət düşərgəsində şəxsi ambisiyalar o qədər güclüdür ki, nə dost tapa bilən var, nə də etibar edəcəkləri həmfikir. “Dostunu mənə göstər, sənin kim olduğunu deyim” atalarımız bu məsəli boş-boşuna deməyiblər. İndi həmin bədbəxtçilik müxalifəti elə bürüyüb ki... Yazıq müxalifət! Bu məntiq və düşüncə ilə haraya qədər gedəcəksən?

---

# “Milli Şura”nı nə gözləyir?

## *Yaxud ölü qurumun Cəmil Həsənli “epoxasına” son qoyulur*

Yarandığı gündən ənənəvi müxalifət düşərgəsində nə siyasi, nə də ictimai cəhətdən formalaşa bilməyən, hazırda da ölü qurum kimi tanınan dağıdıcı təfəkkürə malik “Milli Şura”nı növbəti siyasət mövsümündə daha ağır vəziyyət gözləyir. Ümumiyyətlə, 2013-cü ildən bu yana, yəni ötən 5 ildə heç bir siyasi nailiyyət əldə edə bilməyən, əksinə, kəskin tərəfdar itkisinə məruz qalan “Milli Şura” kimi artıq son dayanacağına çatıb. Bu qurumda yaşananların əsas baiskarı isə, məhz AXCP sədri Əli Kərimli göstərilir.

Əslində, “Milli Şura”nın sədri vəzifəsini daşıyan Cəmil Həsənlinin, sadəcə, müqəvva rolu oynadığını hər kəs bilir. Ara-sıra bəyanatlarla çıxış edən sədrin fikirləri isə, ümumiyyətlə, həmin çevrələrdə ciddi qəbul olunmur. Çünki hər kəs yaxşı bilir və agahdır ki, Ə.Kərimlinin “otur-dur” komandası ilə fəaliyyət göstərən C.Həsənli özbaşına heç bir fikir ifadə edə bilməz. Əsas olaraq, sosial şəbəkələrdə AXCP-“Milli Şura” adından



danışan Ə.Kərimlidir və bu ərəfələrdə, ümumiyyətlə, C.Həsənlinin səsinin gəlməməsi özü-özlüyündə bir sıra qənaətlərə gəlməyə rəvac verməkdədir. Misal üçün, artıq bu cür nəticəyə gəlmək olar ki, AXCP sədri C.Həsənli kartından istədiyi qədər istifadə edib və bundan sonra ona lazım deyil, əksinə, başqasının “Milli Şura”ya sədrlik etməsi Kərimlini qane etmir və bir neçə aydan sonra onun sessiya keçirib, özünü sədr elan etməsi ehtimalı daha çox ehtimal olunur. Beləliklə, “Milli Şura”nın C.Həsənli “epoxasına” son qoyulduğunu bəri başdan proqnoz edə bilərik.

Lakin C.Həsənli ilə yanaşı, unutmamalıyıq ki, bu ölü qurumun “fəxri sədri” Rüstəm İbrahimbəyov faktoru da mövcuddur. Daha doğrusu, R.İbrahimbəyovun daha çox C.Həsənliyə dəstək göstərməsi amilini nəzərə alsaq, Ə.Kərimlinin C.Həsənlini çıxdaş etməsi məsələsində onun sərt etirazlarını eşidə bilərik. Çünki R.İbrahimbəyov zaman-zaman bu quruma maliyyə dəstəyi göstərib, eyni zamanda, Rusiyanın və Qərbin qaranlıq siyasi dairələri ilə hazırda da əməkdaşlıq edir. Qaranlıq dairələrin isə, Ə.Kərimlidən çox, C.Həsənliyə etimad göstərmələri barədə məlumatlar mövcuddur. Bu baxımdan, AXCP sədrinin ikinci ehtiyat planı işə düşə bilər. O, “Milli Şura”nı buraxıb, onun yerinə digər qurumu təsis edə bilər ki, bu planın nə qədər real görünməsi də şübhələr doğurmaqdadır. Çünki Kərimli yeni qurum yaradarsa, onun maliyyələşməsi və tərəfdar toplaması üçün hər şeyi sıfırdan başlamalıdır. Ona qarşı müəyyən dairələrin münasibətlərinin necə olmasını isə təkrarlamağa dəyməz. Lakin fakt budur ki, Ə.Kərimli C.Həsənlidən bezib və “Milli Şura”da, öz təbirincə, “yeniliklər” etməyi planlaşdırır.

Onu da qeyd edək ki, bu qurumda olanqalan siyasi uğursuzlar - Oqtay Gülalıyev, Gültəkin Hacıbəyli, Eldəniz Quliyev, Tofiq Yaqublu, Hacıbaba Əzimov və başqa bir neçə nəfər də C.Həsənlinin sədrlikdən getməsi üçün Ə.Kərimliyə gizli, ya da aşkar dəstək göstərməkdədirlər. AXCP sədrinin ona dəstək göstərəcək şəxslərə nə isə vəd etməsi də sirr deyil. Ancaq bütün bunlara rəğmən, siyasi ölümlə qarşı-qarşıya qalan “Milli Şura”nın növbəti siyasi fəsildə “həyatına son qoyması” faktı qaçınılmazdır. Xüsusilə, son vaxtlar düşərgədə yaranan yeni müxalifət partiyaları, eləcə də, siyasi orientirlərini radikallıqdan loyallığa, eləcə də, konstruktivliyə dəyişən siyasi təşkilatlar fəaliyyətlərini artırdıqca, “Milli Şura”nın siyasi ölümü daha da yaxınlaşır.

**Rövşən RƏSULOV**

***Maarifçilik hərəkatının təsiri ilə XX yüzilliyin ilk illərindən məktəblərin açılmasını, oğlanlarla birlikdə qızların da təhsilə cəlb olunmasını qəbul etmiş fanatik dindarlar, hicabın ləğvi məsələsinə çox ağrılı yanaşır, bu fikri yaxına buraxmaq istəmirdilər. Mətbuatda qadın problemləri ilə bağlı fikirlər ictimaiyyətə iki istiqamətdə çatdırılırdı. Mühərrirlərdən bir qrupu qadına cəmiyyətin tam hüquqlu üzvü kimi baxır, mətbuatda onun azad olması, təhsil alması, sosial həyata qovuşması kimi məsələlər qaldırırdılar. Onların önündə Ə.Ağayev, M.Şahtaxtlı, C.Məmmədquluzadə, Ömər Faiq və başqaları dayanır. Digər qrup isə çadranı namus mücəssəməsi, ilahi göstəriş hesab edərək “qadın övladının tərbiyəçisi olduğuna görə oxumalıdır, yalnız onları tərk etməməlidir” - kimi fikirlər yayırdılar.***

# Əhməd bəy Ağayevin əsərlərində qadın hüquqlarının müdafiəsi

Tarix elmləri namizədi Amalya Qasımova yazır: “Əhməd bəy Bakıda böyük nüfuza malik şəxslərdən idi. Dərin biliyi, geniş dünyagörüşü ilə seçilirdi. O, 1869-cu ildə Şuşada dindar və maarifpərvər bir ailədə anadan olmuş, ibtidai təhsilini ev şəraitində axunddan almış, ərəb və fars dillərini öyrənmişdi. Tiflis Gimnaziyasını bitirdikdən sonra Sankt-Peterburqda Sənaye- Texnologiya İnstitutuna daxil olmuşdu. Bu şəhərdə Əli bəy Hüseynzadə və Əlimərdan bəy Topçubaşovla tanış olmuşdu. İnstitutu bitirmədən Parisə gedərək Fransız Kollecinə daxil olmuş, “Şərq dilləri” və “Şərq xalqlarının tarixi” kurslarında dinləyici kimi iştirak etmiş, təhsilini Sarbonna Universitetinin hüquq fakültəsində davam etdirmişdi. Dövrü mətbuatda islamın siyasi, ideoloji, etik, iqtisadi, hüquqi və fəlsəfi problemlərinə dair əsərlər və məqalələr çap etdirirdi. “Həyat”, “İrşad”, “Tərəqqi”, “Proqress” qəzetlərində redaktorluq fəaliyyəti zamanı mədəni-maarif ocaqları, xeyriyyə cəmiyyətləri yaratmaq üçün Qafqaz türklərini birliyə çağırmış, dini xurafata və cəhalətə qarşı çıxmışdır.

Əhməd bəy Ağayev qadın intibahı tərəfdarı idi və bu barədə öz düşüncələrini hələ 1901-ci ildə “Kavkazski vestnik” jurnalının 3-cü sayında dərc olunmuş “İslam dinində və islam aləmində qadın” əsərində ifadə etmişdi. Əsər çox tez məşhurlaşmışdı və dövrün tərəqqipərvər ziyalıları tərəfindən təqdir edilmişdi.

Əsərdə Ə.Ağayev, nəinki təkcə Azərbaycan, həmçinin, bütün müsəlman qadınlarının keçmişi, bu günü, gələcəyi ilə bağlı problemlərə toxunurdu. Müəllif yazırdı ki, feminizmin bu qədər sürətlə irəlilədiyi, Avropa və Amerikada patriarxal ailənin bünövrəsinin dağıldığı, qadına öz taleyi üzərində düşünmək, indiyədək kişilərin inhisarında olan peşələrdə çalışmaq imkanı verildiyi halda, Asiya və Afrikada islama itaət edən qadınlar ən adi insani hüquqlardan məhrumdurlar. Müsəlman qadınının ağır və cəhalətli həyatı, bütün çətinliyinə baxmayaraq, indiyədək güclü etiraz doğurmayıb və qaneedici islahatçı meydana çıxmayıb. Hərdənbir Türkiyə və Misir mətbuatında müsəlman qadının cəmiyyətdə və ailədə dözülməz vəziyyəti, onların fiziki və əqli inkişafının qarşısını alan “buxovlardan” azad edilməsi zərurəti ilə bağlı səslər yüksəlir, lakin onlar hələ cəsarətsiz, zəif və birbaşa yox, eyhamlarla deyilmiş sözlərdir. Onlar müsəlman cəmiyyətinə xüsusi təsir gücünə malik deyillər. Konstantinopolda, Qahirədə və digər şəhərlərdə qadınlar üçün təhsil müəssisələri açılsa da, onlar onsuz da, hər gün Avropa və avropalılar ilə təmasda olan yüksək dairələri əhatə edir”.

Ə.Ağayev müsəlman qadınının vəziyyətindən danışarkən, ali silki deyil, əsasən, əksəriyyət təşkil edən kütləni nəzərdə tuturdu. Müəllif əsərdə qadının əsarətdə qalmasının səbəblərini Məhəmməd peyğəmbərdə və islam dinində axtaran Qərb ideoloqlarına cavab verir, Məhəmməd peyğəmbərə qədərki dövrdə onların İranda və Ərəbistandakı hüquqsuz vəziyyətini misallarla sübut edir və göstərirdi ki, keçmişdə İranda qadın bütünlüklə kölə sayılırdı. Qanunlar qadının alınıb-satılmasına icazə verirdi. Onlar ailədə kişidən asılı idi və kişi onunla ev heyvanı səviyyəsində rəftar edirdi. Ərəbistanda isə, ailədə qız övladının doğulması ən pis əlamət sayılırdı. Onlar körpə qızları diri-diri quma basdırır, satır, yaxud hər hansı bir ev heyvanına dəyişirdilər, nikah təsadüfi və formal xarakter daşıyır, nə qanunlar, nə adətlər, nə də maddi və mənəvi öhdəliklərlə möhkəmləndirilmirdi. Qadınlar və kişilər bir-birini istədikləri vaxt tərk etməkdə azad idilər. Ərəblərin ailə həyatı qadının qohumları tərəfindən güclü qisas qorxusu yarana biləcəyi zaman davamlı olurdu. Məşhur ərəblər 15, 20, bəzən 100 arvad alırdılar. Bu qadınlar bütün hüquqlardan məhrum idilər. Onlar nə öz ərlərindən, nə də öz kişi qohumlarından heç bir irs almırdılar. Ata adət üzrə öz qızının həyatını istədiyi kimi idarə edirdi. Beşik yaşından kimə istəsə vəd edə və ya nişanlaya bilərdi.

A.Qasımovanın fikrincə, “İslam dinində və islam aləmində qadın” adlı elmi, tarixi-publisistik əsərində Əhməd bəy Ağayev islam dininin qadına ailə və nikah məsələlərinin həllində, məişətdə verdiyi hüquqlar üzərində dayanır. Ə.Ağayev yazır ki, Məhəmməd peyğəmbər özünün ilk nəsihətlərində qadına qarşı vəhşi adətlərə qarşı çıxdı. Quranda qadına böyük bir hissə ayrıldı. “Ən-Nisə” surəsi göstərir ki, qadına necə böyük əhəmiyyət verilmişdir: “Allahdan qorxun. O, kişilərlə qadını eyni maddədən yaratmışdır”. Qurana görə ərli qadın tam hüquqlu vətəndaşdır. O öz əmlakına sahib olmaqda və onu idarə etməkdə azaddır. Quran zorakı evliliyin əleyhinədir. Quran, həmçinin, qız uşaqlarının diri-diri quma basdırılıb, məhv edilməsinə qarşı çıxdı: “Öz uşaqlarınızı öldürməyin”.

Rəvayətə görə islamı yenicə qəbul etmiş Beniamin tayfasından olan Kays Asim peyğəmbərin yanına gələrkən, onun kiçik bir qızcığazı öpüb oxşadığını görür və soruşur: - Oxşadığın bu quzu kimdir? Məhəmməd peyğəmbər qürurla cavab verir: - Bu, mənim qızımdır! O deyir: - “Allahım! Mənim çoxlu belə uşağım olub. Mən onların heç birini öpmədən hamısını diri ikən basdırmışam”. “Bədbəxt” -deyə Məhəmməd peyğəmbər onu ittiham edir: “Deməli, Allah sənin ürəyini bütün insani duyğulardan məhrum edib. Sən insana verilən hüdudsuz həzzlərdən məhrumsan”.

Digər bir nəsihətində Məhəmməd peyğəmbər “Allah cənnəti anaların ayaqları altında yaratmışdır” - demişdir. Beləliklə, qadını mənəvi cəhətdən yüksəldən Məhəmməd peyğəmbər onlara bir çox müasir ölkələrin qanunlarından, məsələn, fransız qadınlarının arzuladığından da üstün hüquqlar verdi. Bu qanunlara görə qız övladları ata və anadan vərəsəliyi qəbul edə bilər. Valideynlər yetkinlik yaşına çatmamış qızları sata və ya taleyi ilə bağlı heç bir göstəriş verə bilməzlər. Onlar, öz arzularına rəğmən, ailə həyatı qurmaqda sərbəst idilər. Qurana görə ərdə olan qadın tamhüquqlu vətəndaşdır.

Müəllif əsərdə çoxarvadlılıq üzərində də dayanır. O, qeyd edir ki, Məhəmməd peyğəmbərə qədərki dövrdə Ərəbistanda və qonşu ölkələrdə tam və sərhədsiz poliqamiya (çoxarvadlılıq) hökm sürürdü. Bu, bir tərəfdən, Şərqə məxsus kök atmış adətlərlə, digər tərəfdən Şərq ölkələrinin təbiəti və burada yaşayan insanların çılğın olması ilə bağlı idi. Məhəmməd peyğəmbər qanuni qadınların sayını dördə endirməklə yanaşı, elə şərtlər qoydu ki, bu, istər-istəməz, təkarvadlılığa gətirib çıxaracaqdı.

Bu şərtlərin ən əsasları aşağıdakılardır: ər bütün arvadlarına qarşı ədalətli olmalı, onları eyni dərəcədə sevməlidir. Lakin bu, mümkündürmü? Bu suala Quranda belə cavab verilir: “Lakin siz öz tərəfinizdən arvadlarınıza qarşı nə qədər ədalətli olmağı arzu etsəniz də, bu, insanın qüvvəsi xaricindədir. Hamısını eyni dərəcədə sevmək mümkündürmü? Çoxarvadlılar belə halda daim günah işlədəcəklər”.

Bəs nə etməli? Bu sualın da cavabını Quranda tapmaq mümkündür: “Siz öz tərəfinizdən arvadlarınız arasında ədalətli olmayacağınızdan qorxursunuzsa, onda yalnız birini seçin, bu, ədalətsizliyə yol verməmək və günah işlətməmək üçün ən düzgün yoldur.”

A.Qasımova yazır: “Əhməd bəy Ağayev Məhəmməd peyğəmbəri örtülülüyü “tətbiq etdiyinə görə” mühakimə edənləri də haqsız sayır və çadra örtməyin bir çox dövlətlərdə hələ Məhəmməd peyğəmbərdən əvvəl bir adət şəklində mövcud olduğunu yazırdı.

O, belə qənaətə gəlirdi ki, Məhəmməd peyğəmbərin dövründə çılğın, yarımçılpaq bədəvilər dəstə-dəstə onun hədislərinə qulaq asmağa gəlir və peyğəmbərin qarşısında namütənasib vəziyyətdə əyləşirdilər. Bu, peyğəmbəri mənən sıxmış və utandırmışdır. Bununla əlaqədar vəhy gəlmişdir: “Ucadan danışmayın, özünüzü ədəblə, ləyaqətlə aparın, bədəninizi örtün”.

Bədəvi kişi və qadınlar o vaxtdan bədənlərinin beldən aşağı hissəsini örtdülər. Lakin sinə, boyun, baş yenə açıq qaldı. Bu dəfə örpək haqqında ayə nazil oldu: “Saçları örtmək lazımdır ki, boyunu və sinəni Ərəbistan günəşinin qızğın şüalarından qorumaq mümkün olsun”.

Müəllif belə nəticəyə gəlir ki, ərəblər çadranı Məhəmməd peyğəmbərdən xeyli gec, işğallardan sonrakı dövrdə digər xalqlarla əlaqələr yarandıqdan sonra tətbiq etdilər.

Əhməd bəy əsərdə türk yazıçısı Fatma Aliyənin də çadra ilə bağlı mülahizələrindən söz açır və çadranın meydana gəlməsi barəsində onun irəli sürdüyü gümanlardan birini oxucuya çatdırır. “Fakt faktlığında qalır” - deyə Fatma Aliyə “Məşhur müsəlman qadınları” əsərində yazırdı ki, heç nə peyğəmbərin işıqlı obrazına kölgə sala bilməz. Tarixdən məlumdur ki, Məhəmməd peyğəmbərin və ilk xəlifələrin vaxtında qadınlar kişilərlə sərbəst danışır, hər iki cinsdən olan adamları qonaq kimi qəbul edir, məscidə və digər ictimai yerlərə gedirdilər.

Fatma Aliyə müsəlman qadınlarının təkamül dövrünü dörd mərhələyə bölür: birinci üç dövrdə müsəlman qadın bir şəxsiyyət kimi inkişaf edib yüksəklərə qalxır, sonuncu Abbasilər dövrünün əvvəlində də hələ öz statusunu bir müddət qoruyub-saxlaya bilir. Bu dövrdə də saray qadınlarının və qızlarının tərbiyəsi ilə şair və yazıçı kimi şöhrətlənən qadınlar məşğul olurdular. Oxumuş qadınlar şəxsi salonlarını açır, oraya Avropada məşhur elm, mədəniyyət xadimi kimi şöhrət qazanmış qadınları dəvət edir, diskussiyalar keçirirdilər.

Fatma Aliyə qeyd edirdi ki, IX-X əsrlərdə ərəb xilafətində qadının vəziyyəti hələ kifayət qədər müstəqil və azad idi. Onlar kişilər və qadınlar üçün ortadan iki hissəyə bölünmüş geniş çadırlarda yaşayırdılar. Qadınlar üçün hissə “hərəm” adlanırdısa, bu, həlelik, avropalı qadınlara məxsus salon mənasını ifadə edirdi. Ev sahibəsi orada öz qonaqlarını qəbul edir, ədəbi gecələr və qəbullar keçirirdi.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 13 sentyabr


## Yeməkdən əvvəl su içmək xəstəlikləri azaldır



Səhər acqarına su içmək çox yaxşı adətdir. Elmi cəhətdən də sübut olunub ki, günü bir stəkan su ilə başlamaqla miqren, böyrək patologiyaları, damar və həzm problemləri kimi bir çox xəstəliklərin qarşısını almaq olar.

AZƏRTAC Rusiyanın sizoj saytına istinadla xəbər verir ki, səhər yeməkdən əvvəl su içmək əzələləri gücləndirir, böyrəklərin sağlamlığını qoruyur və normal fəaliyyətini təmin edir. Yuxu zamanı insanın bədəni təbii olaraq tər və nəfəs vasitəsilə maye itirir və susuzlaşır. Ona görə səhər su balansını bərpa etmək çox vacibdir. Arıqlamaq istəyənlər də çoxlu su içməlidirlər. Səhər ac qarına su içdikdə orqanizmdə bir növ təmizlənmə prosesi gedir. Bədən şlaklardan təmizlənir, maddələr mübadiləsi güclənir ki, bu da arıqlamağın əsas yoludur. Həyat mənbəyi olan su həzm prosesini asanlaşdırır, qandakı toksinləri təmizləyir, dərinin cavanlaşmasına səbəb olur, ürəyi və damarları qoruyur. Qanın qatı olması ürək və damarların sağlamlığına ziyan vurur. Səhər ac qarına su içmək, eyni zamanda, günboyu gümrahlığın və xoş əhval-ruhiyyənin təminatıdır.

## Tənhalıq hissi özünə qapanmanı artırır

Özlərini tənha hiss edənlər onlara doğma olan insanlardan daha çox uzaqlaşmaq istəyirlər. ABŞ-ın Çikaqo Universitetinin mütəxəssisləri apardıqları tədqiqatların nəticəsində bu qənaətə gəliblər.



AZƏRTAC xarici saytlara istinadla xəbər verir ki, alimlər 600 nəfərin iştirak etdiyi iki araşdırma aparıblar. İştirakçılar əvvəlcə özlərini nə qədər tənha hiss etdiklərini bildirən testdən keçiriliblər. Sonra psixoloqlar könüllülərin dost, qohum, tanış və özlərinə yad olan insanlara nə qədər yaxın məsafədə dayanmaq və ya oturmaq istədiklərini müşahidə ediblər. Məlum olub ki, çox güclü tənhalıq hissi insanı ən doğmalarından iki dəfə uzaqlaşdırır. Bu hissin güclü olması insanlarla aradakı məsafəni artırmağa məcbur edir.

"Siz özünüzü kütlə və ya ailə həyatı içində də tənha hiss edə bilərsiniz. Əldə edilənlərlə arzulananların üst-üstə düşməməsi tənhalıq hissi yaradır", - bu sözləri araşdırmalarda iştirak edən alimlərdən biri, psixiatriya və hərəkətin neyrobiologiyası üzrə mütəxəssis Stefani Kaçiopo deyib. Alimlər yeni araşdırmanın bundan əvvəl onlar tərəfindən təqdim olunmuş evolyusion tənhalıq modelini bir daha sübut etdiyi qənaətindədirlər. Məsələ burasındadır ki, tənhalıq hissi beyində iki əks proqramı hərəkətə gətirir: sosial əlaqələrin genişləndirilməsi və özünümüdafiə. İkinci hiss insanları potensial təhlükə olaraq görür və onlarla məsafə saxlamağa məcbur edir. Bunun nəticəsində insanın daxilində gedən mübarizə tənhalıq hissini daha da artırır.

## Madonnanın qızı podiuma yarıçılpaq çıxdı

Dünya şöhrətli müğənni Madonnanın qızı Lordes Leon Nyu-York Moda Həftəsində "Gypsy Sport" brendinin "Yaz-Yay 2019" kolleksiyasının təqdimatı üçün podiuma çıxıb. Sinəsini balıqqulağı və aksessuarlarla örtən 21 yaşlı Lordes zəncir büstqalter formasındakı koftası və hissələrə bölünmüş şalvarı ilə diqqət çəkib. Dəb dünyasında özünəməxsus yer tutan Lordes Madonnanın üç il sevgi münasibəti yaşadığı Karlos Leonun övladıdır. Qeyd edək ki, o, modelliklə yanaşı, həm də Miçiqan Universitetinin tələbəsidir.

### ELAN

**ADPU-nun II kurs tələbəsi Əliyev Cəfər Əhmədağa oğlunun adına verilmiş riyaziyyat müəllimliyi üzrə tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## 2019-cu ildə yeddi Formula 1 festivalı keçiriləcək



Keçən il Londonda təşkil edilmiş F1 Live şousunun uğurundan sonra "Liberty Media"da buna oxşar daha bir neçə hadisə olub. Bu il Şanxayda, Marseldə və Milanda oxşar festivallar uğurla keçirilib. Qarşıda daha bir yürüş şousu gözlənilir. Bu, Mayamidə olacaq. AZƏRTAC F1News.ru saytına istinadla xəbər verir ki, 2019-cu ildə Qran-Pri ərəfəsində düz yeddi festival keçirilməsi planlaşdırılır.

Formula 1-in kommersiya direktoru Şoin Bratçes deyib: "Bu il biz dörd festival keçirmişik, gələn il isə ən azı yeddi festival keçirməyi planlaşdırırıq. Düşünürəm ki, gələcəkdə onların sayı daha çox olacaq. Bizim sponsorlarımızın, tərəfdaşlarımızın və yürüş promouterlərin mənafeyi naminə, azarkeşləri cəlb etmək üçün yetişmiş bazarların tədqiq olunmasına xeyli vaxt sərf etmişik. Məncə, belə festivallar idmanın bu növünün əfsanəvi gözəlliyini tamaşaçıya çatdırmağın ən yaxşı üsuludur. Belə festivallarda insanlar Formula 1 maşınlarını öz şəhərində görmək imkanı qazanırlar".

## İspaniya yığması Xorvatiya millisini darmadağın edib



Sentyabrın 11-də UEFA Millətlər Liqasının ikinci turuna yekun vurulub. AZƏRTAC xəbər verir ki, günün ən çox maraqla gözlənilən oyunu "Estadio Martinez Valero" stadionunda keçirilib. "A" liqasının 4-cü qrupunda yer alan Xorvatiya millisi İspaniya yığmasının qonağı olub. Görüş İspaniya millisinin böyük hesablı qələbəsi ilə başa çatıb (6:0). Meydan sahiblərinin heyətində Saul Niguez, Marko Asensio (2), Lovre Kaliniç (avtoqol), Rodrigo, Serxio Ramos, İsko fərqləniblər. Bu liqanın 2-ci qrupunda yer alan İslandiya yığması isə Belçika millisini qəbul edib. Eden Hazard, Romelu Lukakunun (2) qolları sayəsində belçikalılar qələbə qazanıb.

## Fransız cüdoçu: "Bakıda yenidən dünya çempionu olmağa çalışacağam"



Dünya çempionatına hazırlıq uzun müddətdir başlayıb. Yarış ilk dəfə olaraq sentyabrın sonlarına təsadüf edəcək. Ona görə də çox həyəcanlıyam. AZƏRTAC xəbər verir ki, bunu Fransanın qadın cüdoçulardan ibarət milli komandasının üzvü Klariss Aqbenyenu Bakıda keçiriləcək dünya çempionatına hazırlıq barədə danışarkən deyib. Altmış üç kiloqram çəki dərəcəsində çıxış edən titullu idmançı bildirib ki, yarışda əsas rəqibləri 2016-cı il Rio-de-Janeyro Yay Olimpiya Oyunlarının finalında uduzduğu sloveniyalı Tina Trstenyak və yaponiyalı Miku Tasiro olacaq: "Bütün rəqiblərimə hörmətlə yanaşıram. Amma Trstenyak və Tasiro ən güclüləridir. Yenidən dünya çempionu olmağa çalışacağam".

Toqo əsilli Aqbenyenu Azərbaycan cüdoçuları haqda da fikirlərini bölüşüb: "Azərbaycanın kişi cüdoçulardan ibarət komandası həqiqətən çox güclüdür. Onların medal qazancaqlarını düşünürəm. Hamısına uğurlar arzulayıram". İyirmi altı yaşlı Aqbenyenu 2014-cü və 2017-ci il dünya çempionatlarının qalibidir. Bu il İsrailin paytaxtı Təl-Əvivdə keçirilmiş Avropa çempionatının qızıl medalını qazanan xanım idmançı əvvəllər də 2 dəfə qitənin ən güclüsü olub. O, "Bakı-2015" ilk Avropa Oyunlarında fərdi mübarizədə bürünc, qarışıq komanda yarışında qızıl medal qazanıb. Qeyd edək ki, cüdo üzrə dünya çempionatı sentyabrın 20-27-də Milli Gimnastika Arenasında təşkil olunacaq.

## Lekler "Ferrari"nin son 57 ildə ən gənc pilotu olacaq

Növbəti mövsümdən "Ferrari"də çıxış edəcək "Zauber"in pilotu Moneqask Şarl Lekler 1961-ci ildən bəri İtaliya komandasının ən gənc pilotu olacaq. AZƏRTAC xəbər verir ki, əvvəlki rekord 1961-ci ildə 20 yaşına keçmiş meksikalı Rikardo Rodriqesə məxsusdur. Bundan başqa, Moneqask karyerasında cəmi bir Qran-Pri olarkən Maranelloya köçən Jil Vilnevin zamanından bəri ən az təcrübəyə malik pilot olacaq.

Leklerin "Ferrari" ilə kontrakt imzalaması xəbəri bu gün, sentyabrın 11-də yayılıb. Sənədin dəqiq müddəti açıqlanmır. Şarl komandada 2007-ci ilin dünya çempionu Kimi Raykkoneni əvəz edəcək. Öz növbəsində, finlandiyalı pilot iki il müddətinə "Zauber"lə kontrakt imzalayıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**



**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**